RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 96 (8412) BAZAR, 17 may 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Şəffaflıq və vətəndaşa layiqli xidmət missiyası

## Korrupsiyaya qarşı mübarizə tədbirləri konkret və praktiki addımlarla müşayiət olunur

Qlobal miqyasda ciddi problem kimi özünü göstərən korrupsiya inkişaf proseslərində buxova çevrilən, dövlət orqanlarının səmərəli və qanunauyğun fəaliyyətinə mane olan başlıca faktordur. Təsadüfi deyil ki, inkişaf səviyyəsindən asılı olmayaraq hər bir sivil ölkə cəmiyyətin yüksəlişinə süni əngəllər yaradan problemlərin aradan qaldırılmasına çalışır, o cümlədən korrupsiya ilə mübarizə aparır.

### Azərbaycanın nailiyyətləri yüksək qiymətləndirilir

Korrupsiyaya qarşı mübarizə sahəsində ilk növbədə siyasi və hüquqi tədbirlərin həyata keçirilməsi labüddür. Amma korrupsiyaya qarşı mübarizədən yalnız o halda danışmaq olar ki, dövlət öz siyasi iradəsini ortaya qoysun və korrupsiyanın qarşısını almaq üçün cəmiyyətin bütün səviyyələrində onunla davamlı mübarizə aparsın. Əgər belə olmazsa, heç bir dövlət öz cəmiyyətini korrupsiyadan təmizlədiyini iddia edə bilməz.

Bu gün Azərbaycan inkişafının elə həlledici mərhələsindədir ki, əldə olunan makroiqtisadi göstəricilərin davamlı xarakter daşıması daha çox cəmiyyət həyatının bütün əhəmiyyətli sahələrində demokratik normaların, şəffaflığın və qanunçuluğun təminatından asılıdır. Ona görə də ölkəmizdə korrupsiyaya qarşı mübarizə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tərəqqi strategiyasının mühüm hissəsini təşkil edir, aşkarlıq və şəffaflıq prinsipləri iqtisadi-sosial inkişaf siyasətinin mərkəzində dayanır. Respublikamızda dövlət idarəetmə sistemində və dövlət-vətəndaş münasibətlərində şəffaflıq prinsipinin qorunması, büdcə vəsaitlərinin təyinatı üzrə xərclənməsi, maliyyə intizamının gücləndirilməsi, eləcə də korrupsiya hallarına qarşı mübarizə tədbirlərinin genişləndirilməsi istiqamətində son illər həyata keçirilən tədbirlər də məhz bu məqsədə xidmət edir.

Xüsusən son illər aparılan sosial-iqtisadi və hüquqi islahatların ruhuna uyğun olaraq dövlət siyasətinin prioritet istiqamətlərindən olan korrupsiyaya qarşı mübarizə tədbirləri daha intensiv xarakter alıb. İqtisadiyyatın liberallaşdırılması, bürokratik əngəllərin tam aradan qaldırılması, məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, şəffaflığın və hesabatlılığın təmin edilməsi və digər bu kimi korrupsiyaya qarşı mübarizə tədbirləri konkret əməli-praktiki addımlarla müşayiət olunur.

Azərbaycanın dövlət idarəçiliyində şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirdiyi islahatlar və əldə etdiyi nailiyyətlər bu sahədə ixtisaslaşmış aparıcı beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, respublikamız "Beynəlxalq Şəffaflıq" Təşkilatının (Transparency International) 2019-cu il üzrə tərtib etdiyi Korrupsiya Qavrama İndeksində 30 balla 26 pillə irəliləyib. Azərbaycanın 26 pillə irəliləməsi onu göstərir ki, Prezident İlham Əliyevin yürütdüyü siyasətin verdiyi müsbət nəticələr təkcə ölkə daxilində yox, beynəlxalq arenalarda da təqdir olunur. Xatırladaq ki, 1993-cü ildə Berlində təsis edilən "Beynəlxalq Şəffaflıq" Təşkilatı dövlət və özəl sektorlarda mövcud korrupsiya haqqında araşdırmaların aparılması və digər fəaliyyətləri həyata keçirir.

### Korrupsionerlərə qarşı amansız mübarizə aparılacaq

Azərbaycanda həyata keçirilən inkişaf siyasətinin mərkəzində aşkarlıq və şəffaflığın təmin olunması, vətəndaşa layiqli xidmət missiyası dayanır. "Hər bir məmur xalqının xidmətçisi olmalıdır", - deyən Prezident İlham Əliyevin idarəçiliyində əsas prioritetlərdən biri vətəndaş məmnuniyyətinin təmin edilməsi, onları narazı salan halların aradan qaldırılması, insanların dövlət strukturlarına müraciətlərinə çevik və ədalətli münasibətin ortaya qoyulması olub. Öz missiyasını anlamayan məmurlar layiqli cəzalarını alıblar.

Təbii ki, hər bir məmur öz vəzifəsini yalnız bununla bitmiş hesab etməli deyil.

Ardı 2-ci səh.

## Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında gənclər və idman sahələrində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında gənclər və idman sahələrində əməkdaşlıq haqqında 2020-ci il fevralın 25-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkiyə Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 may 2020-ci il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Zati-alinizə ən xoş təbriklərimi çatdırıram.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına isə firavanlıq arzu edirəm.

*Dərin hörmətlə,*

***XVI Karl QUSTAV,***
***İsveçin Kralı***

## N.M.İsmayılovun Saatlı Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Nazim Mehdi oğlu İsmayılov Saatlı Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 may 2020-ci il*

# Dostluq və strateji tərəfdaşlığın mühüm təzahürü

### Münasibətlərin dərinləşməsi ABŞ - Azərbaycan əməkdaşlığına impuls verir və yeni seqmentlər qatır

Beynəlxalq birliyin fəal üzvlərindən birinə çevrilən Azərbaycan etibarlı tərəfdaş kimi regionda və dünyada mehriban qonşuluq siyasəti yürüdür və böyük dövlətlərlə, nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlığı daha da möhkəmləndirir.



Son illərdə isə bir çox dövlətlərlə münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksələrək daha da şaxələnməkdədir. Elə strateji tərəfdaşlar olan Azərbaycan - ABŞ münasibətlərinin yüksələn xətt üzrə inkişafı da bu baxımdan diqqəti daha çox cəlb edir.

Bu bir həqiqətdir ki, Amerika Birləşmiş Ştatları bu gün dünyanın qüdrətli dövləti hesab olunur və Azərbaycanın etibarlı tərəfdaş olması, gündən-günə daha da güclənməsi, daxili və xarici siyasətini daim qlobal çağırışların tələbləri çərçivəsində yeni meyarlarla zənginləşdirməsi, Cənubi Qafqazın aparıcı dövləti kimi regionu qarşıdurma deyil, əməkdaşlıq məkanına çevirmə istiqamətində mühüm diplomatik-siyasi səylərini əsirgəməməsi Birləşmiş Ştatların diqqətini cəlb etməyə bilməz.

Ardı 2-ci səh.



# Azərbaycan və CISCO arasında əməkdaşlığın perspektivləri genişdir

**Prezident İlham ƏLİYEV:** "Strateji tərəfdaşlığımız yalnız güclənəcək. Çünki bizim ölkənin müasirləşdirilməsi ilə bağlı gündəliyimiz, sizin isə texnologiyanız var"

Prezident İlham Əliyevlə CISCO şirkətinin rəhbər nümayəndələri arasında keçirilən videokonfrans Azərbaycanda reallaşdırılan layihələrə, əməkdaşlığın daha da inkişaf etdirilməsi məsələlərinə həsr olunmuşdur. Konfransda "Smart ölkə", təhsil, kibertəhlükəsizlik və digər sahələrə aid məsələlər müzakirə edilmişdir.

Ardı 3-cü səh.

# Karantin rejimi növbəti dəfə yumşaldılır

### Azərbaycanda qlobal pandemiya ilə mübarizədə ikinci mərhələ başlayıb

Koronavirus pandemiyası hələ də dünya dövlətlərini qorxu içərisində saxlamaqda davam edir. Təbii ki, virus əleyhinə vaksin tapılmayana qədər vəziyyət belə də davam edəcək. Lakin dövlətlər vətəndaşlarının həyatını qorumaq üçün hər cür mübarizə üsullarına əl atırlar. Sevindiricidir ki, dünyanı sarsıdan bu virusa qarşı mübarizə tədbirlərinin effektivliyi ilə seçilən nümunəvi ölkələr sırasında Azərbaycanın da adı çəkilir. Bütün bunlar Prezident İlham Əliyev tərəfindən vaxtında qəbul edilən düzgün qərarların effektiv nəticəsidir desək, yanılmarıq.

### Karantin rejimi ilin sonunadək davam edə bilər

Məhz bu qabaqlayıcı tədbirlərin nəticəsidir ki, ölkədə elan edilən sərt karantin rejimi getdikcə yumşaldılır. Ölkədəki mövcud sanitar-epidemioloji vəziyyət, digər dövlətlərdə tətbiq olunan preventiv tədbirlər, eləcə də Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələri təhlil edilərək tətbiq olunan xüsusi karantin rejimi mayın 4-dən 31-dək uzadılıb. Bununla bərabər əhali arasında virusa yoluxma sürəti, xəstələrin sağalma dinamikası nəzərə alınaraq tətbiq edilən bir sıra məhdudiyyətlərin yumşaldılmasına dair qərar qəbul edilmişdi.

Ardı 5-ci səh.



# Çəltikçiliyə maraq artıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 9 fevral tarixli sərəncamı ilə "2018-2025-ci illər üçün çəltikçiliyin inkişafına dair Dövlət Proqramı" təsdiq edilib.**

Dövlət proqramının başlıca məqsədi ərzaq təhlükəsizliyi baxımından ölkə əhalisinin ekoloji cəhətdən təmiz düyü məhsullarına olan tələbatının daha dolğun ödənilməsi, idxalın əvəzlənməsi, çəltik emalı sənayesinin inkişaf etdirilməsi və kənd əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsi üçün Azərbaycanda çəltikçilik sahəsinin inkişafını stimullaşdırmaqdan ibarətdir. Dövlət proqramının icrası nəticəsində 2025-ci ildə ölkə üzrə çəltik əkini sahələrinin 10 min hektara, istehsalın həcminin isə 40 min tona çatdırılacağı gözlənilir.

Dövlət proqramının icrası istiqamətində görülən əməli işlər və dövlət səviyyəsində sahibkarlara yaradılan şərait Lənkəranda da çəltikçiliyə marağı xeyli artırıb.

Ardı 4-cü səh.

# Paşinyan Ermənistanı sürətlə iflasa aparır

### Sosial-iqtisadi sahədə yaranan problemlər bu ölkədə əhalinin narazılığını daha da artırıb

**Ermənistanda sürətlə pisləşən vəziyyət mövcud hakimiyyətdən narazılığı daha da artırır. Amma görünən budur ki, Nikol Paşinyan üçün bunlar hansısa önəm kəsb etmir. Ermənistanın Vatikandakı keçmiş səfiri, sabiq prezident Serj Sarkisyanın kürəkəni Mikael Minasyanın açıqlamaları da bunu təsdiq edir. Belə ki, Minasyan yeni hökumətin və xüsusən Nikol Paşinyanın korrupsioner fəaliyyəti ilə bağlı ifşaedici silsilə ittihamlarını davam etdirib.**

Minasyan insanların həyatına, həmçinin Ermənistan hakimiyyətinin beynəlxalq mafiya ilə anlaşması mövzularına toxunub: "Deyim ki, Nikol Paşinyan, ümumiyyətlə, populist deyil. Paşinyanın çoxdankı arzusu idi ki, milyarder Hagik Tsarukyandan daha yaxşı yaşamaq və keyfiyyətli bir həyat tərzi keçirməklə öyünsün. Paşinyan populizm qanunlarını pozdu, o, dövlət oliqarxından başqa heç kim deyil".

Serj Sarkisyanın kürəkəni Paşinyana ailə üzvləri üçün 600-700 min dollara maşınlar aldığını xatırladıb. Onun sözlərinə görə, birinci şəxsin və ailəsinin təhlükəsizliyini təmin etmək üçün bu qədər maşın son 30 ildə Ermənistanda heç kimdə olmayıb. Minasyan deyib ki, bu heç cür populizmlə əlaqəli deyil: "Həyat yoldaşı ilə məsələn, Milanda "La Skala" operasına və Müqəddəs Lazar adasına səyahətlərin də populizmlə heç bir əlaqəsi yoxdur. Bu, xalqın hesabına edilir, on minlərlə dollar xərclənir.

Ardı 8-ci səh.

- *Özünü, doğmalarını və dostlarını qorumaq:*
- *Koronavirusa qalib gəlmək üçün*

**EVDƏ QAL!**

*Biz birlikdə güclüyük!*

# Vətəndaşlar dövlət başçısına minnətdarlıq edirlər

## “Atdığınız addımlar Sizin nə qədər güclü və qayğıkeş Prezident olduğunuzun göstəricisidir”

Bütün dünyanı bürümüş koronavirus pandemiyasının ölkəmizdə geniş yayılmasının qarşısının alınması istiqamətində Prezident İlham Əliyevin atdığı qətiyyətli addımlara, əhalinin sağlamlığının qorunması, rifahının yaxşılaşdırılması üçün gördüyü işlərə görə Azərbaycan vətəndaşlarından dövlət başçısına minnətdarlıq məktubları gəlməkdə davam edir. Vətəndaşlarımız Prezident İlham Əliyevin göstərdiyi diqqət və qayğıdan razılıqlarını ifadə edirlər. AZƏRTAC Prezidentin saytına istinadla dövlət başçısına ünvanlanan məktubların bir qismini təqdim edir.



Laçın rayonundan məcburi köçkün, 2-ci qrup Qarabağ müharibəsi əlili **Müseyib İbrahimov** yazır: “Cənab Prezident, dünyanı çənginə alan koronavirusun ölkəmizə təsirinin minimuma endirilməsi üçün görülən tədbirlər Sizin hər bir azərbaycanlının Prezidenti olduğunuzu sübut edir. Bu infeksiyanın dünyanın ən qüdrətli ölkələrində ciddi tələfatlara səbəb olsa da, Azərbaycana ciddi ziyan vura bilməməsi bir daha göstərdi ki, respublikamızda görülən tədbirlər səmərəlidir. Bu da ölkəmizin əmin əllərdə olduğunu bir daha nümayiş etdirir, xalqımızı qürurlandırır.

Cənab Prezident, hər bir vətəndaşın qayğısına qalaraq ölkəmizin inkişafı, xalqımızın rifahı üçün yorulmadan çalışdığınıza görə Sizə və Mehriban xanım Əliyevaya dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm. Allah Sizi və ailənizi qorusun!”

Neftçala rayonunun Ərəbqardaşbəyli kəndindən Qarabağ müharibəsi veteranı **Naib Məmmədov**un məktubunda deyilir: “Möhtərəm cənab Prezident, Siz bizim güvən yerimiz və dayağımızsınız. Sizə təşəkkür etməklə az da olsa, borcumdan çıxmağa çalışdım.

Əziz Prezidentimiz, hazırda dünyada baş verən hadisələr hamıya bəllidir. Belə bir çətin dövrdə Sizin pandemiya ilə qətiyyətlə mübarizə apardığınızın şahidiyik. Eyni zamanda ədalətsiz, rüşvətxor məmurlara qarşı apardığınız mübarizə də göz qabağındadır. Bir Qarabağ qazisi olaraq hər zaman Sizin yanınızdayam, möhtərəm cənab Prezident!

Koronavirus kimi qlobal məsələlər fonunda əhalinin sosial rifahı üçün atdığınız addımlar Sizin nə qədər güclü və qayğıkeş Prezident olduğunuzun göstəricisidir. Qonşu Bala Surra kəndinin qazlaşdırılması istiqamətində görülən işlərə görə bütün kənd sakinləri adından Sizə təşəkkür edir, gələcək işlərinizdə uğurlar arzulayıram”.

Goranboy rayonunun Meşəli kəndindən gənc müəllim **Elçin Nurməmmədov** dövlət başçısına minnətdarlığını bu sözlərlə ifadə edir: “Hörmətli cənab Prezident, koronavirus pandemiyasının geniş yayıldığı bir dövrdə xalqımıza göstərdiyiniz diqqət və qayğıya görə gənc müəllim olaraq öz adımdan və ailəmizin adından Sizə təşəkkürümü bildirirəm. Pandemiyanın qarşısını almaq məqsədilə görülən bütün tədbirlər alqışalayiqdir. Sizin daim diqqət mərkəzində saxladığınız sahələrdən biri də təhsildir. Biz müəllimlər təhsilin, həmçinin qaçqınların və məcburi köçkünlərin sosial rifahının yaxşılaşdırılmasının hər zaman diqqətinizin mərkəzində olmasının şahidiyik.

Cənab Prezident, əmin ola bilərsiniz ki, “Biz birlikdə güclüyük!” çağırışınızı biz müəllimlər də yaşam amalına çevirmişik. Bundan sonra da əlimizdən gələni əsirgəməyəcək, müstəqil, güclü Azərbaycan dövlətinin və xalqının etibarlı və firavan gələcəyinə, sosial rifahına hesablanmış uzaqgörən siyasətinizi daim dəstəkləyəcəyik. Ulu Tanrı xalqımızın daha sağlam və firavan sabahı naminə Sizi və ailənizi qorusun!”

Göyçay rayonunun sakini **Ceyhun Mütəllimov** yazır: “Hörmətli cənab Prezident, xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir. Bu sözlər Ulu Öndərimiz Heydər Əliyevə məxsusdur. Bu gün xalqımızın üzləşdiyi çətin günlərdə Sizin həyata keçirdiyiniz işlər hər bir vətəndaşın taleyinin dövlət üçün nə qədər qiymətli olduğunu göstərdi. Xalq-iqtidar birliyini yaratdığınıza görə Sizə bir Azərbaycan ziyalısı kimi öz minnətdarlığımı bildirirəm. Sizin gördüyünüz bütün işlər xalqın həyat səviyyəsinin yaxşılaşdırılması üçündür. Fəaliyyətiniz göz qabağındadır. Xalq Sizi sevir, daxili və xarici siyasətinizi alqışlayır, xoş və çətin günlərdə Sizinlə birgə olduğunu bildirir.

Cənab Prezident, biz Sizinləyik, biz birlikdə güclüyük!”

Siyəzən rayonunda yaşayan məktəbli **Seyidzəhra İsmayılova**: “Əziz və hörmətli Prezidentimiz, mənim 12 yaşım var. Bir məktəbli olaraq Sizinlə fəxr edirəm. Çox sevinirəm ki, ölkəmizə Sizin kimi uzaqgörən siyasi xadim rəhbərlik edir. Bizim ailəmiz Sizi daim dəstəkləyib, bundan sonra da dəstəkləyəcək. Dünyada yayılmış koronavirus pandemiyası ölkəmizdən də yan keçmədi. Lakin Sizin tapşırığınızla görülən işlər bu bəlanın qarşısını almağa kömək etdi. Qaydalara tam riayət edirəm. Bir məktəbli olaraq əminəm ki, Sizin müdrik rəhbərliyinizlə biz tezliklə bu bəladan xilas olacağıq. Əminəm ki, tezliklə məktəblər açılacaq və biz təhsilimizi davam etdirəcəyik. Allah Sizi və xalqımızı qorusun!”

Kürdəmir rayonunda yaşayan 71 yaşlı təqaüdçü müəllim **Elza Yunusova** xalqımıza göstərdiyi diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıq edərək yazır: “Əziz və hörmətli Prezidentimiz, mən 71 yaşlı təqaüdçü müəllim, tələbə, əsgər nənəsi olaraq Sizə və Mehriban xanıma xalqımıza qayğı ilə yanaşdığınıza görə təşəkkür edirəm. Dünyanı qəflətən bürüyən koronavirus bəlasının yaratdığı çətin dövrdə Siz hamımıza hərtərəfli dayaq oldunuz, hər bir vətəndaşı ayrı-ayrılıqda diqqət və qayğı ilə əhatə etdiniz. Xalqına daim böyük qayğı göstərən, onun yolunda hər bir çətinliyə sinə gərən Ulu Öndər Heydər Əliyevin varisi, düşünürəm ki, belə də etməlidir. Allahdan Sizə möhkəm cansağlığı arzu edirəm. Bu xeyirxah əməllərinizdə yolunuz daim açıq, işiniz avand olsun”.

Yevlax rayonunun Ərəş kəndinin sakini **Mais Mehdiyev**in məktubunda qeyd edilir: “Hörmətli cənab Prezident, dünyanı öz əsarətinə almış koronavirus xəstəliyi Azərbaycana çox zəif təsir göstərə bildi. Sizin uğurlu daxili və xarici siyasətiniz dünya ictimaiyyəti tərəfindən hörmətlə qarşılanır. Pandemiya dövründə Azərbaycanda xalqın maarifləndirilməsi, karantin rejiminin düzgün həyata keçirilməsi, həkimlərin, tibb işçilərinin gərgin fəaliyyəti ilə dövlətimiz koronavirus xəstəliyinə qalib gəlməkdədir. Bu işlərin hamısı Sizin və Mehriban xanımın sayəsində həyata keçirildi. İşləməyən insanlara birdəfəlik 190 manat verilməsi də bütün xalqın sevincinə səbəb olub. Mən bir zəhmətkeş insan kimi deyirəm ki, Sizin adınız tarixə qızıl hərflərlə həkk olunur.

Möhtərəm Prezident, bizim kənd da daxil olmaqla üç kəndin əhalisi yolumuzun yaxşı vəziyyətdə olmaması ilə əlaqədar Sizə məktub ünvanlamışdıq. Sizin tapşırığınızla bu kəndlərin yoluna geniş və keyfiyyətli asfalt döşənib, 5-6 yerdə dayanacaqlar quraşdırılıb. Həmin kəndlərin əhalisi də Sizə uzun ömür, cansağlığı arzulayır”.

Sabirabad rayonundan **Gülər Xankişizadə** yazır: “Hörmətli cənab Prezidentimiz, mən Sizə çox minnətdaram. Ona görə ki, bütün dünyanın çətin vəziyyətdə olduğu bir vaxtda Siz xalqımızın yanında oldunuz. Biz magistrlərin müavinətlərini, müəllimlərin və digər dövlət işçilərinin maaşlarını verdiniz. Əhaliyə bu çətin zamanda böyük dayaq oldunuz. Hazırda korrupsiya ilə bağlı gördüyünüz işlər çox təqdirəlayiqdir. Siz bizim sağlamlığımızı bizdən daha çox qoruyursunuz. Bütün bunlara görə Sizə bir daha təşəkkür edirəm”.

Bakı şəhərinin Nərimanov rayonunun sakini **Şaiq İsmayılov**: “Hörmətli cənab Prezident, yaxşı anlayıram ki, hazırda dünyada və ölkəmizdə mövcud olan vəziyyətlə əlaqədar gərgin iş qrafikində çalışırsınız. Bu çətin vəziyyətdə xalqımıza göstərdiyiniz dəstəyə, etdiyiniz yardıma görə şəxsən öz adımdan və ailəmin adından Sizə təşəkkürümü bildirirəm. Sizə işlərinizdə uğurlar arzu edirəm. Allah köməyiniz olsun. Sizə uzun ömür, möhkəm cansağlığı diləyirəm, hər zaman sağlam olun. Allah Sizi Azərbaycan xalqına çox görməsin!”

Cəbrayıl rayonundan məcburi köçkün, 86 yaşlı **Zərnisə Allahverdiyeva** dövlət başçısına minnətdarlıq edərək yazır: “Hörmətli cənab Prezident, 86 yaşlı ana kimi Cəbrayıl rayonundan məcburi köçkünlər adından bu çətin günlərdə bizlərə və bütün xalqımıza göstərdiyiniz dəstəyə görə Sizə minnətdarlığımızı bildirir, bütün qərarlarınızı dəstəklədiyimizi bəyan edirəm. Sizin bu günlərdəki fədakarlığınız göz önündədir və indiki ağır vəziyyətdə xalqımızı düşündüyünüz, hər bir vətəndaşa dəstək olduğunuz üçün çox sağ olun. Koronavirus pandemiyasının ölkəmizdə yayılmasının qarşısının vaxtında alınması üçün gördüyünüz tədbirləri alqışlayır, tövsiyələrinizi yüksək dəyərləndiririk. Hər zaman Sizə minnətdarıq. Var olun, cənab Prezident!”

## “Ölkənin bütün incəsənət xadimləri hər zaman sizin uzaqgörən siyasətinizi dəstəkləyirlər”

### Akademik Musiqili Teatrın kollektivi Prezidentə təşəkkür etdi



Ölkə Prezidenti İlham Əliyevin mədəniyyət və incəsənət xadimlərinə fərdi təqaüd və mükafatların verilməsi ilə bağlı imzaladığı sərəncamla mükafata layiq görülənlər arasında Azərbaycan Dövlət Akademik Musiqili Teatrının əməkdaşları da var. Teatrın direktoru, Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Əliqismət Lalayev rəhbərlik etdiyi kollektivin adından cənab İlham Əliyevə sənət adamlarına göstərdiyi diqqət və qayğıya görə təşəkkürünü bildirib. Tanınmış rejissor və teatr rəhbəri dövlət başçısına ünvanladığı müraciətində minnətdarlığını belə ifadə edib:

“Möhtərəm cənab Prezident, Akademik Musiqili Teatrın çoxsaylı kollektivi adından sizə dərin minnətdarlığımı bildirirəm. İmzaladığınız sərəncamla Prezident mükafatına layiq görülənlər arasında Azərbaycan Dövlət Akademik Musiqili Teatrının yaradıcı şəxslərinin də olması bizi hədsiz sevindirdi.

Belə çətin və səksəkəli şəraitdə, bəşəriyyətin koronavirus adlı qorxunc düşmənlə üz-üzə qaldığı bir vaxtda siz ölkənin ən həssas insanlarını - yaradıcı şəxslərini yenə də unutmadınız. Bəşəriyyətin min bir problemlə üzləşdiyi bir vaxtda nə qədər incəsənət xadiminə və onların ailəsinə diqqət və qayğınızı bir daha göstərdiniz. Biz xarici mətbuatdan da izləyib görürük ki, dünyanın heç bir yerində incəsənət adamlarına bu qədər diqqət və qayğı yoxdur. Məhz buna görə də sevincimiz hədsizdir. Biz qürur duyuruq ki, Azərbaycan adlı bir məmləkətin vətəndaşlarıyıq. Fəxr edirik ki, daim xalqının, millətinin yanında olan, əməlləri ilə dünyanın dörd bir yanında yaşayan hər bir azərbaycanlının prezidenti ola bilən, yaradıcı əməyə xüsusi dəyər verən sizin kimi bir dövlət başçımız var.

Ölkəmizdə mədəniyyət, incəsənət və elm sahəsinə göstərilən dövlət qayğısı Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin bütün dövrlərində prioritet məsələ olaraq həyata keçirilib. Ümummilli Liderimizin bu siyasəti hazırda sizin tərəfinizdən böyük uğurla davam etdirilir. Siz həmişə xalqın rifahı, onun rahat və hüzur içində yaşaması barədə düşünürsünüz. Xüsusən bu son hadisələr koronavirus pandemiyası dövründə sizin insanlara nə qədər yaxın olduğunuzu bir daha aydın göstərdi. Doğma və qayğıkeş münasibətinizlə hər birimiz üçün nə qədər əziyyət çəkirsiniz. İstər siz, istərsə də ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva həmişə xalqın yanındasınız.

Əziz Prezidentimiz! Biz - ölkənin bütün incəsənət xadimləri hər zaman sizin uzaqgörən siyasətinizi dəstəkləyir və təbliğ edirik. Biz inanırıq ki, dünyamız üçün belə çətin sınaq günlərində bu bəladan az itkilərlə və alnıaçıq çıxmaq üçün məqamında verdiyiniz qərarlar, apardığınız islahatlar, ölkəmizin təhlükəsizliyi naminə atdığınız hər bir addım öz bəhrəsini verəcək. Bir daha sizə minnətdarlığımızı bildirir, çətin və şərəfli fəaliyyətinizdə uğurlar arzulayırıq”.

# Dostluq və strateji tərəfdaşlığın mühüm təzahürü

### Münasibətlərin dərinləşməsi ABŞ - Azərbaycan əməkdaşlığına impuls verir və yeni seqmentlər qatır

*Əvvəli 1-ci səh.*

Siyasi, iqtisadi, sosial və humanitar sahələrdə keyfiyyətcə yeni xarakter alan və beynəlxalq münasibətlər sistemində güclü siyasi arxitekturaya çevrilən Azərbaycan - ABŞ əlaqələri pozitiv şaxə alaraq daha dərin məna və məzmun kəsb etməkdədir. Hər iki ölkənin formalaşdırdığı geniş və güclü əməkdaşlıq platforması regionda dinamikliyi və uzunömürlü humanitar gələcək üçün siyasi hərarəti ilə diqqəti cəlb edir. Münasibətlərin dərinləşməsinə hər il bir çox iqtisadi komponentlərin əlavə olunması ABŞ - Azərbaycan əməkdaşlığına impuls verir və yeni seqmentlər qatır.

Bu günlərdə ABŞ Prezidenti Donald Trampın 28 May - Respublika Günü münasibətilə Prezident İlham Əliyevə ünvanladığı təbrik məktubu da təsdiq etdi ki, iki dövlət arasında hər zaman yüksək siyasi münasibətlər mövcuddur.

Prezident İlham Əliyevə və Azərbaycan xalqına səmimi salamlarını çatdıran Donald Tramp məktubunda vurğulayır ki, Birləşmiş Ştatlar Azərbaycanın suverenliyini və müstəqilliyini güclü şəkildə dəstəkləyir.

ABŞ və Azərbaycan beynəlxalq təhlükəsizliyi gücləndirmək, Avropanın enerji marşrutlarını və mənbələrini şaxələndirmək və iki böyük xalqın insanlarına parlaq gələcək qurmaq naminə təxminən 30 il əməkdaşlıq ediblər. “Bu sahələrdə Azərbaycanın mühüm töhfələrini dəyərləndirir, dəstəklənməsinə söz verdiyimiz demokratik idarəetməni təşviq edən, habelə hüquq və azadlıqları qoruyan bütün addımların atılmasına həvəsləndiririk. Koronavirus pandemiyası ilə üzləşdiyimiz bir vaxtda Birləşmiş Ştatlar Azərbaycan xalqının yanındadır. Biz Minsk qrupunun həmsədrlərindən biri kimi Dağlıq Qarabağ münaqişəsinin dayanıqlı və sülh yolu ilə həlli üçün danışıqların dəstəklənməsində iştirakımızı davam etdirəcəyik”, - deyə Donald Tramp məktubunda bildirir.

30 illik əməkdaşlıqdan söz açan Donald Tramp Azərbaycanı beynəlxalq aləmin mühüm faktoru, təhlükəsizlik və enerji təminatçısı kimi dəyərləndirir. Məktubda ABŞ və Azərbaycan nəzərdə tutularaq iki böyük xalq və dövlət ifadəsindən istifadə olunur. ABŞ-ın dövlət başçısı səviyyəsində Azərbaycanı nüfuzlu və güclü dövlət olaraq qəbul edir. Bu, Azərbaycan və ABŞ arasında yaxın tərəfdaşlıq münasibətlərinin təsdiqi kimi səciyyələndirilməlidir.

Mayın 15-də CISCO şirkətinin təşəbbüsü ilə Prezident İlham Əliyevlə bu şirkətin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramer, vitse-prezidenti Qay Ditrix və təşkilatın rəhbərliyinin digər nümayəndələri arasında keçirilən videokonfransda dövlət başçımız ABŞ Prezidentinin məktubunu yüksək dəyərləndirib: “Prezident Tramp yazır ki, təxminən 30 ildir Birləşmiş Ştatlar və Azərbaycan beynəlxalq təhlükəsizliyi, enerji təchizatının şaxələndirilməsini, siyasi islahatlar məsələlərini təmin etmək üçün birgə işləyirlər. Həmin məktubda o, xüsusi olaraq qeyd edir ki, iki böyük dövlət gələcəkdə daha çox işlər görəcək”. Dövlət başçısı bunu ABŞ ilə Azərbaycan arasında dostluğun çox mühüm təzahürü adlandırıb.

Donald Trampın cənab İlham Əliyevə ünvanladığı təbrik məktubu bir daha ABŞ ilə Azərbaycan arasında olan münasibətlərin bundan sonrakı mərhələdə də bütün sahələr üzrə daha da inkişaf edəcəyini təsdiqləyir. Həmçinin məktubda olan bir məqam ABŞ-ın Azərbaycanın müstəqilliyi və suverenliyi, beləliklə də ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına güclü dəstəyi kimi xarakterizə edilir.

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın beynəlxalq sülh, sabitlik və qlobal inkişafa verdiyi əhəmiyyətli töhfələri ABŞ dövlət başçısı tərəfindən təqdir olunur.

Həqiqətən, bu istiqamətlərdə Azərbaycanın onilliklər ərzində oynadığı mühüm rol danılmazdır. Azərbaycan beynəlxalq terrorçuluq, radikalizm, ekstremizm və transmilli mütəşəkkil cinayətkarlıq, Əfqanıstan da daxil olmaqla dünyanın həssas bölgələrində çoxtərəfli sülhməramlı əməliyyatlara dəstək, qlobal inkişafa yardım, enerji infrastrukturlarının genişləndirilməsi kimi istiqamətlər üzrə ABŞ-la sıx əməkdaşlıq edir.

Bir sözlə, cənab İlham Əliyevin ölkəmizin hərtərəfli uğurları, gələcək perspektivləri, həyata keçirilən qlobal enerji və kommunikasiya layihələri ilə bağlı fikirləri ABŞ rəsmiləri və ictimai-siyasi xadimləri tərəfindən hər zaman rəğbətlə qarşılanıb, Azərbaycan haqqında daha dolğun, hərtərəfli və obyektiv rəy formalaşdırıb. ABŞ Prezidenti Donald Trampın son məktubu da bunu təsdiq edir.

Bir daha bəlli oldu ki, ABŞ-ın Azərbaycanla ikitərəfli əməkdaşlığa olan marağı yalnız ölkəmizin strateji-coğrafi mövqeyə malik olması və zəngin karbohidrogen ehtiyatları ilə deyil, həm də möhkəm siyasi sabitliyə, demokratik inkişafa, beynəlxalq birliklə fəal inteqrasiyaya söykənən milli dövlətçilik kursunun dönməzliyi ilə əlaqədardır. Bu iki dövlətin strateji müttəfiqliyinin getdikcə yaxşılaşması, əməkdaşlığın genişlənməsi və əlaqələrin möhkəmlənməsi, bütövlükdə, Cənubi Qafqazda sülhün, təhlükəsizliyin, qlobal enerji və kommunikasiya layihələrinin həyata keçirilməsi baxımından çox böyük əhəmiyyət kəsb edir.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Şəffaflıq və vətəndaşa layiqli xidmət missiyası

### Korrupsiyaya qarşı mübarizə tədbirləri konkret və praktiki addımlarla müşayiət olunur

*Əvvəli 1-ci səh.*

Vəzifəyə təyin olunmuş, dövlət idarəçiliyində çalışan hər bir şəxs həm də öz fəaliyyəti ilə mövcud siyasi kursun daha uğurla reallaşması işinə öz töhfəsini verməlidir. Bu mənada son illərdə həyata keçirilən yeni islahatlarda məmurlar öz missiyalarını daha dərindən anlamalı, ətalətə varmamalı, onlara həvalə olunan vəzifələrdə etimadı doğrultmağa çalışmalıdırlar. Lakin təəssüf ki, son dövrlərdə bəzi məmurların timsalında nəinki bunun əksi, həmçinin vəzifə səlahiyyətlərindən öz şəxsi və maddi maraqları naminə sui-istifadə etmələri müşahidə olunur. Lakin ən əsası odur ki, cəmiyyətimiz tərəfindən ikrahla qarşılanan bu kimi əməllər ifşa olunur və belə hərəkətlərə yol verən məmurlar qanun qarşısında cavab verməli olurlar. Son dövrlərdə Ağstafa, Yevlax, Neftçala, Biləsuvar və İmişli rayonlarının icra başçılarının həbs olunması göstərir ki, korrupsiya və rüşvətxorluğa qarşı mübarizə Azərbaycanda ən ciddi formada aparılır və bunun təzahürləri göz qabağındadır. Törətdiyi cinayətə görə hər bir məmur ədalət mühakiməsi qarşısında cavab verməli olacaq.

İcra başçılarının, həmçinin Binəqədi qəsəbə bələdiyyəsinin sədrinin, bir neçə rayonda icra nümayəndəsinin həbsi isə göstərdi ki, bəzi məmurlar həm də koronavirusa qarşı respublikamızda həyata keçirilən ümummilli mübarizə prosesindən öz ciblərini doldurmaq üçün istifadə ediblər. Bu kritik günlərdə pandemiya ilə mübarizə tədbirləri ilə əlaqədar vəzifə səlahiyyətlərindən və sosial aksiyalardan öz şəxsi mənafeyi üçün istifadə etmək vicdansızlıqdır. “Xoşagəlməz hallara qarşı ciddi mübarizə aparılmalıdır. Bu mübarizə bu gün öz nəticələrini verir. Mən bunu bir neçə dəfə demişəm ki, xoşagəlməz hallara, rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə amansız olacaq. Bugünkü mənzərə bunu göstərir. Artıq beş icra hakimiyyəti başçısı həbs olunub və bütün o videomateriallar, ondan sonra istintaq materialları göz qabağındadır. Yəni, kasıb insanın çörəyini kəsmək, ona çatacaq vəsaiti mənimsəmək ən böyük cinayət sayıla bilər. Pandemiya dövründə aztəminatlı təbəqəyə nəzərdə tutulmuş yardımı vəhşicəsinə mənimsəmək vicdansızlıq və cinayətdir. Tutulan o beş icra hakimiyyəti başçısının beşi də bu çirkin əməllərlə məşğul olub”- deyə Prezident İlham Əliyev həmin məmurların əməllərinə qiymət verərkən bildirib.

Prezident İlham Əliyev həm Baş prokuror Kamran Əliyevi, həm Kəlbəcər Rayon İcra Hakimiyyətinin yeni təyin olunmuş başçısını videoformatda qəbul edərkən bu barədə ətraflı danışdı, açıq mesajlar verdi. Dövlət başçısı bir daha bəyan etdi ki, korrupsiyaya və korrupsionerlərə qarşı amansız mübarizə aparılacaq. Qanun qarşısında hamı bərabərdir və heç kim toxunulmaz deyil. Hər bir məmur ona həvalə olunan vəzifəni layiqincə və şərəflə icra etməli, etimadı doğrultmalıdır.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# İŞİMİZ, GÜZƏRANIMIZ



## Azərbaycan və CISCO arasında əməkdaşlığın perspektivləri genişdir

### Prezident İlham ƏLİYEV: "Strateji tərəfdaşlığımız yalnız güclənəcək. Çünki bizim ölkənin müasirləşdirilməsi ilə bağlı gündəliyimiz, sizin isə texnologiyanız var"

*Əvvəli 1-ci səh.*

CISCO şirkətinin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramer ilk növbədə Azərbaycan Prezidentinin COVID-19 virusu ilə əlaqədar Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının toplantısında və Qoşulmama Hərəkatının görüşünün təşkil edilməsində liderliyini yüksək qiymətləndirmişdir. Bu tədbirlərin çox böyük təəssürat bağışladığını söyləyərək cənab İlham Əliyevə minnətdarlığını bildirmişdir. Həmçinin qeyd etmişdir ki, CISCO-nun teleiştirak texnologiyasından istifadəni görmək onlar üçün çox xoş olmuşdur. Sözügedən tədbirlərin keçirilməsinə kömək etdiklərinə görə məmnun olduqlarını da nəzərə çatdırmışdır.

CISCO-nun vitse-prezidenti Qay Ditrix də çıxış etmiş, müzakirə olunan məsələlərə toxunmuş və demişdir: "Onların hamısı Sizin əsas prioritetlərinizlə bağlıdır. Siz onları təxminən iki il əvvəl bizim qarşımızda təsvir etdiniz. Biz ildə iki dəfə Bakıda, yaxud Davosda keçirdiyimiz görüşlərdə Sizə yenilikləri çatdırırdıq. "Ağıllı şəhər" layihəmiz yəqin ki, xatirinizə gəlir. Biz, əslində, "Ağıllı avtovağzal" ilə başladıq və şəhərdə həmin sahəyə aid bütün müxtəlif cəhətləri əlavə etdik. Özü də bu addımı hərtərəfli sınaq formatında atdıq. Nəticə inanılmaz dərəcədə uğurlu oldu. Çoxsaylı müsbət rəylər daxil oldu. Çox yaxşı məlumatlar toplanıldı".

Q. Ditrix daha bir layihədən bəhs edərək bildirmişdir ki, ümumi məqsəd bir-biri ilə bağlantısı olan "Ağıllı məktəblər" və təhsil proqramlarını yaratmaq, bu sahədə qlobal liderlik qazanmaqdır.

Prezident İlham Əliyev iki mühüm tədbirin - Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşündə və Qoşulmama Hərəkatının Təmas qrupu formatında Zirvə görüşünün videokonfrans şəklində təşkilində CISCO-nun avadanlıqlarının keyfiyyətini yüksək dəyərləndirdi və şirkətlə əməkdaşlığın uğurla davam etdiyini vurğulamışdır: "Şadam ki, Davosda keçirdiyimiz görüşdən sonra böyük irəliləyişə nail olmuşuq. Heyətim mənə məlumat verib ki, bu sahələrdə, xüsusən də müzakirə etdiyimiz kimi "Ağıllı şəhər" layihəsi sahəsində işlər yaxşı gedir. İndi isə siz yeni "Smart ölkə" ideyası ilə çıxış edirsiniz. Nəinki şəhər infrastrukturu, nəqliyyat, dayanacaq yerləri və bəzi digər şəhər infrastrukturu, o cümlədən qlobal "Smart ölkə" konsepsiyası ortaya çıxır və biz onu tam dəstəkləyirik. Söylədiyiniz kimi, o, təhsili, kibertəhlükəsizliyi, səhiyyəni və əvvəlcə müzakirə etdiyimiz kimi, əlavə edərdim ki, kənd təsərrüfatı və su ehtiyatlarının idarə olunmasını əhatə edir... Lakin ilk olaraq mənə sizin "Quantela" şirkəti ilə əməkdaşlığınız haqqında məlumat verildi. Əlbəttə ki, biz bunu tam dəstəkləyirik. "Smart ölkə" layihəsinin inkişaf gündəliyi üzrə tam tədqiqatın, bir növ "yol xəritəsi"nin hazırlanması da fikrimcə, çox faydalı olardı".

Bütün bunlar Azərbaycan və ABŞ arasında strateji tərəfdaşlığı əyani şəkildə nümayiş etdirir. Yeri gəlmişkən qeyd edək ki, bu günlərdə ABŞ Prezidenti Donald Tramp dövlət başçısına məktub göndərmişdir. O, Azərbaycanın Prezidentini və xalqını 28 May Respublika Günü münasibəti ilə təbrik etmişdir. Prezident Donald Tramp yazmışdır ki, təxminən 30 ildir Birləşmiş Ştatlar və Azərbaycan beynəlxalq təhlükəsizliyi, enerji təchizatının şaxələndirilməsini, siyasi islahatlar məsələlərini təmin etmək üçün birgə işləyirlər. Məktubda xüsusi olaraq qeyd edilmişdir ki, iki böyük dövlətimiz gələcəkdə daha çox işlər görəcək. Bu, ABŞ ilə Azərbaycan arasında dostluğun çox mühüm təzahürüdür.

CISCO ilə videokonfrans zamanı sosial-iqtisadi sahədə bir çox istiqamətlər üzrə gerçəkləşdiriləcək layihələrdən bəhs edilmişdir. Belə ki, kibertəhlükəsizlik, energetika, səhiyyə, kənd təsərrüfatı və digər sahələrlə bağlı söhbətlər aparılmışdır. Prezident İlham Əliyev bütün sahələrdə əməkdaşlıq və tərəfdaşlığın uğurla davam edəcəyinə inamını bildirmişdir: "Əminəm ki, bizim strateji tərəfdaşlığımız yalnız güclənəcək. Çünki bizim ölkənin müasirləşdirilməsi ilə bağlı gündəliyimiz, sizin isə texnologiyanız var. Bizim uzun illərdir ki, əməkdaşlıq təcrübəmiz var. Artıq qeyd etdiyim kimi, burada layihələrin uğurlu icrası birgə səylərimizin ən yaxşı təzahürüdür. Bizim baxışlarımız tam üst-üstə düşür və potensialımızı səfərbər etməklə biz nisbətən qısa müddət ərzində çox işlər görə bilərik. Bu isə bizim Azərbaycanın müasirləşdirilməsi baxışımıza tam uyğun olacaq. Koronavirus pandemiyası başa çatdıqdan sonra sizi Bakıda görməyə ümid edirəm".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Ailə başçısını itirməyə görə 143 mindən çox ailəyə aylıq pensiya və ya müavinət ödənilir

**Dövlət tərəfindən sosial təminat sistemi ilə əhatə olunan həssas əhali qruplarından biri də ailə başçısını itirmiş ailələrdir.**




Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ailə başçısını itirməyə görə hazırda 116 min ailəyə aylıq pensiya, 27 min ailəyə isə aylıq müavinət ödənilir.

Ötən il həyata keçirilən sosial islahatlar çərçivəsində digər sosial ödənişlər kimi, ailə başçısını itirməyə görə aylıq müavinətin məbləği artırılaraq hər ailə üzvü üçün 80 manata çatdırılıb. Həmçinin ailə başçısını itirmiş ailələrin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə müvafiq qanunvericiliyə dəyişiklik edilib. Dəyişikliyə əsasən, 2020-ci ilin əvvəlindən həmin ailələrə onlar üçün nəzərdə tutulan sosial təminat növlərindən (ailə başçısını itirməyə görə pensiya və ya müavinət) hansı yüksək məbləğdədirsə, onu seçmək hüququ verilib.

## Məhsullarımız Polşadakı "Carrefour" supermarketlərində həvəslə alınır

**Ölkəmizin qeyri-neft sektoru ixracının artırılması və Azərbaycan istehsalı olan məhsulların xarici ölkələrdə daha çox tanıdılması, yeni ixrac bazarlarına çıxarılması və satışının təşkili istiqamətində işlər davam edir.**




Bu məqsədlə Azərbaycanın Mərkəzi Avropa ölkələri üzrə ticarət nümayəndəsinin təşəbbüsü, aparılan danışıqlar və bazar araşdırmalarının nəticəsi olaraq Varşavadakı 3 "Carrefour" və Kielçe şəhərindəki eyniadlı supermarketində "Made in Azerbaijan" stendləri yerləşdirilib. Stendlərdə Azərbaycan istehsalı olan müxtəlif növ şərablar, mürəbbələr, kompotlar, nar şirəsi, narşərab, salatlar, çay təqdim olunur. Bununla yanaşı, marketlərin alış-veriş zallarında alıcıların diqqətini cəlb edən və stendlərə doğru istiqamətləndirən reklam banerləri asılıb. Bəzi məhsullarımız marketlərin rəflərində də yerləşdirilib.

Stendlərin ilkin olaraq 2 aylıq müddətinə yerləşdirilməsi nəzərdə tutulur və məhsullarımızın satış göstəricilərindən asılı olaraq müddət artırıla bilər.

Qeyd edək ki, Polşada fəaliyyət göstərən pərakəndə satış şəbəkələrində Azərbaycan istehsalı olan müxtəlif növ məhsulların vahid ölkə stendində satışı ilk dəfədir təşkil olunur. "Made in Azerbaijan" stendlərindəki "Azersun Holding", "Azgranata", "Astaraçay", "Aspi Agro", "Marandi", "Şərq ulduzu" MMC-lərin, "Abşeron Şərab" və "Göygöl Şərab Zavodu" ASC-lərin istehsalı olan məhsullar Varşavada fəaliyyət göstərən "Azərbaycan Ticarət Evi"nin dəstəyi ilə təqdim edilib.

Avropa ölkələrində COVID-19 pandemiyasının yayıldığı və karantin tədbirlərinin tətbiq olunduğu dövrdə Azərbaycanın Mərkəzi Avropa ölkələri üzrə ticarət nümayəndəsi aparatının bu təşəbbüsü ölkəmizin qeyri-neft məhsulları ixracının artırılması və ixrac bazarlarının şaxələndirilməsinə xidmət edir.

Məlumat üçün bildirək ki, Fransanın "Carrefour S.A." şirkəti dünyanın bir çox ölkələrində fəaliyyət göstərən aparıcı pərakəndə satış şirkətlərindəndir. Şirkət Polşa bazarında ilk marketini 1997-ci ildə açıb və hazırda 80-dən çox hipermarket, 160-dan artıq supermarket, 650-dən çox kiçik marketlərdən ibarət şəbəkəyə malikdir.

## Bölgələrdə fermerlərə səyyar xidmətlər göstərilir




**Kənd Təsərrüfatı Nazirliyinin müasir texnoloji avadanlıqlarla təchiz edilmiş mikroavtobusları bölgələrdə fermerlərə səyyar xidməti davam etdirir.**

Hazırda Dövlət Aqrar İnkişaf mərkəzlərinin əməkdaşları Şəmkir rayonunun ucqar dağ kəndlərində yazlıq əkinlərin bəyanı və arı ailələrinin qeydiyyata alınması ilə bağlı səyyar xidmətə başlayıblar. Günəşli, Varlı həyat və Yeni Göyçə kəndlərində yazlıq əkinlərin bəyanı ilə əlaqədar 37 fermerə səyyar xidmət göstərilib. Növbəti günlərdə Dağ Cəyir, Aşağı Çaykənd və Yuxarı Çaykənd kəndlərində mikroavtobuslar vasitəsilə fermerlərə səyyar xidmət təşkil olunacaq. Eyni zamanda Şəki rayonunda fermerlərə səyyar xidmət göstərilməsinə start verilib.

Xidmətin təşkili zamanı xüsusi karantin rejiminin qaydalarına ciddi əməl olunur. Fermerlər xidmət növbəsinə yazılır, onlara tibbi maskalar paylanır, gözləmə zamanı sosial məsafənin qorunmasının zəruriliyi ilə bağlı təlimatlandırılırlar. Xidmət göstərilən mikroavtobuslarda gündəlik dezinfeksiya işləri aparılır.

Gələn həftə isə Xaçmaz, Masallı, Kürdəmir və Bərdə rayonlarında fermerlər üçün səyyar xidmətin göstərilməsi planlaşdırılır.

## Bank əməkdaşlarının işə adaptasiyası mövzusunda onlayn seminar keçirilib



**Azərbaycan Banklar Assosiasiyasının "İnsan resurslarının idarə olunması" ekspert qrupunun təşkilatçılığı və "Ziraat Bank Azərbaycan" ASC-nin dəstəyi ilə "Xüsusi karantin rejimindən sonra bank əməkdaşlarının işə adaptasiyası" mövzusunda "Zoom proqramı" üzərindən ABA-ya üzv bankların əməkdaşları üçün onlayn seminar təşkil edilmişdir.**

"Ziraat Bank Türkiyə"nin İnsan Resursları Qrupunun rəhbəri Dr. İlker Met tərəfindən keçirilmiş seminarda koronavirus infeksiyasının (COVID-19) yarada biləcəyi təhlükənin qarşısının alınması üçün tətbiq edilmiş xüsusi karantin rejimindən sonra bank əməkdaşlarının iş rejiminin tənzimlənməsi, uzun fasilədən sonra normal iş rejiminə qayıdan əməkdaşların işə adaptasiyası, onların ev mühitindən iş mühitinə keçidinə daha tez nail olunması, yarana biləcək psixoloji və fizioloji təsirlərin itkisiz aradan qaldırılması, diqqət və konsentrasiyanın təmin olunması ilə bağlı təqdimat vasitəsi ilə mühazirələr edilib, dinləyiciləri maraqlandıran suallara cavab verilmişdir.

## Paytaxtın girişində aparılan genişmiqyaslı işlər yekunlaşmaq üzrədir




**Dövlət başçısının tapşırığına uyğun olaraq, Bakının şimal girişində xüsusən günün gur saatlarında yaşanan tıxac və ləngimələrin aradan qaldırılması məqsədi ilə hazırlanan və aidiyyəti dövlət qurumları ilə razılaşdırılan layihələr əsasında aparılan genişmiqyaslı yenidənqurma işləri yekunlaşmaq üzrədir.**

Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun "20 Yanvar" - "Masazır" dairələri arasında yerləşən hissəsində hər iki istiqamət üzrə aparılan yenidənqurma işləri çəçivəsində "20 Yanvar" metrostansiyanın "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin inzibati binasının qarşısındakı çıxışının istiqaməti dəyişdirilərək yolun hərəkət hissəsi 10 m-ə qədər genişləndirilib. Nəticədə əlavə hərəkət zolağı yaradılıb və Moskva prospektindən daim sağa hərəkət təmin edilib. Bundan başqa, "20 Yanvar" dairəsinin ölçüləri hər bir istiqamət üzrə 8-10 metr kiçildilərək "oval" formaya salınıb, dairəyə gələn və çıxan yollarda genişləndirmə işlər aparılıb. Eyni zamanda magistral yolun Bakı Beynəlxalq Avtovağzal kompleksi qarşısından keçən hissəsində mövcud olan süni təpəciklərin sökülməsi ilə yol hər iki istiqaməti üzrə 1 hərəkət zolağı enində genişləndirilib. Anoloji işlər sözügedən ərazidə yerləşən yol ötürücüsündə də aparılıb. Belə ki, körpüdə əlavə svay əsaslı özül üzərində dayaq inşa olunmaqla sağ və sol istiqamətdə əlavə hərəkət hissəsi yaradılıb.

Hazırlanmış layihələrə əsasən, Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 7-ci km-də, Bakı Beynəlxalq Avtovağzal kompleksi ilə metronun "Avtovağzal" stansiyası arasındakı ərazidə süni yaradılmış, "təpəcik" ləğv edilərək əsas yolun zolaqlarının sayı 4-ə çatdırılıb. Həmçinin şimal tərəfdən (Sumqayıt istiqamətindən) Bakı Beynəlxalq Avtovağzal kompleksinin və "Avtovağzal" metro stansiyasının ərazisindən keçərək yolötürücü vasitəsi ilə Bakı Dairəvi-1 avtomobil yolu istiqamətində hərəkət edən avtomobillərin hərəkət şiddətinin yüksək olduğu həmin ərazinin sağ tərəfi genişləndirilməklə nəqliyyat vasitələrinin hərəkətinin səmərəli təşkili və hərəkət iştirakçılarının təhlükəsizliyi təmin edilib.

Bakı Dairəvi-1avtomobil yolu ilə Sumqayıt yolu və "20 Yanvar" dairəsi istiqamətinə geri dönməni təmin etmək məqsədi ilə sözügedən yolun 1-ci km-də yeni geridönmə hissə yaradılır. Bundan başqa, eyni yolla Badamdar istiqamətində hərəkət edən nəqliyyat vasitələrinin geri dönməsinə şərait yaradılması üçün yerli keçid yollarını birləşdirən mövcud yolötürücüləri vasitəsi ilə geriyə dönmə yeri salınır. Bununla da Yeni Yasamal yaşayış kompleksi və Abbas Mirzə Şərifzadə küçəsi istiqamətində şəhərə daxil olan avtonəqliyyat vasitələrinin uzun məsafə qət edib Bakı şəhər Baş Dövlət Yol Polisi İdarəsinin qarşısında yerləşən dairədən geri dönmə əməliyyatı yerinə yetirməyə ehtiyac qalmayacaq. Bu isə öz növbəsində Badamdar şossesi istiqamətində yaşanan tıxac və ləngimələrin aradan qaldırılmasına müsbət təsir edəcək.

Anoloji addımlar Bakı-Sumqayıt yolunda da atılır. Belə ki, avtomagistralın təqribən 8-ci km-də yerləşən və dəmir yolu üzərində inşa olunmuş yol ötürücüsünün alt hissəsində 2 hərəkət zolaqlı yeni geridönmə hissəsi yaradılır. Yeni yol hissənin salınması ilə uzun məsafə qət edib geridönmə əməliyyatını "Xırdalan dairəsi"ndən etməyə lüzum qalmayacaq. Bu isə öz növbəsində "Xırdalan dairəsi" ətrafında yaşanan tıxac və ləngimələrin aradan qaldırılmasına müsbət mənada təsir edəcək.

Paytaxta şimal istiqamətindən giriş-çıxışın təkmilləşdirilməsi məqsədi ilə aparılan genişmiqyaslı tədbirlər çərçivəsində dövlət başçısının tapşırığına uyğun olaraq, hazırda "Xırdalan dairəsi" istiqamətində "Masazır dairəsi"nədək yolun, həmçinin "Xırdalan dairəsi"nin altından keçən avtomobil tunelinin hər bir istiqamət üzrə 2 hərəkət zolağı enində genişləndirilməsi işləri də aparılır.

Anoloji genişləndirmə işləri "Xırdalan dairəsi"nin altından keçən avtomobil tunelində də görülür. Əlavə olaraq tunel hər bir istiqamət üzrə 2 hərəkət zolağından 4 hərəkət zolağına genişləndirilir. Bundan başqa, yenidənqurma işləri zamanı "Xırdalan dairəsi"nə qalxan və düşən hissələrdə 2 hərəkət zolağı enində yerli yolların inşası da yekunlaşmaq üzrədir.

Yenidənqurma və genişləndirmə işlərinin may ayının sonu, iyun ayının əvvəlində yekunlaşdırılması nəzərdə tutulur.

## CDC şirkətinin karantin düşərgəsi tələblərə cavab verir

**SOCAR-ın rəhbər işçiləri "Caspian Drilinq Compani Limited" MMC (CDC) tərəfindən koronavirus pandemiyasının yarada biləcəyi təhlükənin qarşısını almaq məqsədilə həyata keçirilən proflaktik tədbirlərlə tanış olmaq üçün bu şirkətin müasir dəniz təchizat bazasında təşkil olunmuş karantin düşərgəsində olmuşlar.**

Əsas payı SOCAR-a məxsus olan CDC qazma şirkəti xüsusi karantin düşərgəsi yaradaraq, yüksək peşəkarlğa malik qazma mütəxəssislərinin sağlamlığının qorunması və qazma əməliyyatlarının fasiləsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görmüşdür. Tədbirlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında fəaliyyət göstərən Operativ Qərargahın və TƏBİB-in müəyyən etdiyi qaydalara və təlimatlara uyğun həyata keçirilir.

Düşərgədə əməkdaşların təhlükəsiz izolyasıyasını təmin etmək məqsədi ilə 160 nəfər işçinin hər biri üçün ayrıca istirahət otaqları inşa olunmuş və bütün otaqlar internet və peyk antenası ilə təchiz edilmişdir. Düşərgə bütün zəruri tibbi avadanlıqlarla təchiz edilmiş təcili tibbi yardım maşını fasiləsiz növbə çəkir.

## Hibrid qarğıdalı toxumçuluğu layihəsi proqnozları doğruldur



**Ötən ildən Kənd Təsərrüfatı Nazirliyi tərəfindən maliyyələşdirilmiş "Azərbaycanda hibrid qarğıdalı toxumçuluğunun təşkili" layihəsi həyata keçirilir və bu çərçivədə Əkinçilik Elmi-Tədqiqat İnstitutunda ciddi nəticələr əldə olunub.**

Layihədə xarici ekspert qismində Türkiyənin Adana Tarımsal Araştırma İnstitutunun alimləri Dr. İbrahim Cerit və Dr. Gönül Cömertpay iştirak ediblər. Azərbaycan tərəfdən isə Aqrar Elm və İnnovasiya Mərkəzinin şöbə müdiri Cavanşir Təlai, Əkinçilik ETİ-nin "Bitki seleksiyası" şöbəsinin böyük elmi işçisi Həlimə Məmmədova təmsil olunublar.

Layihə çərçivəsində ötən ilin 6 ayı ərzində (18 iyul-28 dekabr) ölkədə ilk dəfə İnnovativ Double haploid texnikası tətbiq olunaraq yerli hibrid xətləri əldə edilib. Texnologiyanın tətbiqi üçün xüsusi induzer xətlər vasitəsi ilə Türkiyədə əldə edilmiş haploid toxumlar ekspertlər tərəfindən Azərbaycana gətirilib, burada Əkinçilik ETİ-də laboratoriya şəraitində xüsusi qulluq tədbirləri ilə cücərdilib və alınmış cücərtilərə kolxisin maddəsi ilə təsir edilərək gen sayı ikiyə bölünöb onlardan dihaploid toxumlar əldə edilmişdi. Daha sonra bu toxumlar yenə laboratoriyada şitil halına gətirilərək açıq sahəyə köçürülmüşdü. Təcrübənin aparıldığı vaxt soyuq aylara təsadüf etdiyinə görə, əkin aparılan istixana polietilen örtüyü ilə bağlanmışdı. Vegetasiya dövründə şitillərə bütün aqrotexniki qulluqlar göstərilmiş, hər bitkinin öz-özü ilə tozlanma işləri aparılmışdı. Nəticədə ilk dəfə ölkəmizdə tətbiq olunmuş Double haploid texnikası ilə 8 təmiz hibrid xətti əldə edilmişdir.

Bu xətlər üzərində 2020-ci ildə də institutda tədqiqat davam edir. Hazırda tədqiqatı layihənin icraçısı Həlimə Məmmədova aparır.

# Əmanətlərin Sığortalanması Fondunun yeni icraçı direktoru kollektivə təqdim olunub

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirov Əmanətlərin Sığortalanması Fondunun yeni təyin olunmuş icraçı direktoru Tural Piriyevi fondun kollektivinə təqdim edib.





AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin köməkçisi Natiq Əmirov Əmanətlərin Sığortalanması Fondunun əsas vəzifəsinin banklarda fiziki şəxslərdən əmanətə qəbul olunmuş pul vəsaitlərinin itirilməsi riskinin qarşısını almaq, maliyyə-bank sisteminin sabitliyinə və inkişafına xidmət etmək olduğunu bildirərək fondun son illərdə həm bu vəzifənin icrası ilə bağlı, həm də ləğvedici kimi fəaliyyəti barədə məlumat verib və bunun çox məsuliyyətli iş olduğunu qeyd edib. N.Əmirov diqqətə çatdırıb ki, fondun fəaliyyət göstərdiyi müddət ərzində banklara inam əhəmiyyətli dərəcədə artıb. Əhalinin banklarda olan əmanətlərinin miqdarı və sayı əhəmiyyətli dərəcədə artıb ki, bu da bütövlükdə bank sisteminin sağlamlaşmasında mühüm rol oynayıb. Ötən müddət ərzində Əmanətlərin Sığortalanması Fondu həm sığorta qurumu olaraq fəaliyyət göstərib, həm də ləğvedici qismində lisenziyaları geri alınmış bankların ləğv edilməsi istiqamətində mühüm tədbirlər həyata keçirib. Bütövlükdə 17 bank bağlanıb, son bir ayda daha 4 bankın lisenziyası ləğv olunub. Əmanətlərin Sığortalanması Fondu bu müddətdə qarşısına qoyulan tələblər, eyni zamanda, xüsusilə vətəndaşların əmanətlərinin geri qaytarılması istiqamətində çox faydalı və əhəmiyyətli işlər görüb.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirov Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın Əmanətlərin Sığortalanması Fondunun gələcək fəaliyyəti ilə bağlı tapşırıqlarını kollektivin diqqətinə çatdıraraq ölkə rəhbərliyi tərəfindən qarşıya qoyulmuş hədəflərə nail olmaq üçün fondun kollektivinə məsləhət və tövsiyələrini verib.

Sonda Natiq Əmirov Əmanətlərin Sığortalanması Fondunun ölkənin maliyyə-bank sabitliyinin qorunması istiqamətində fəaliyyətinə müvəffəqiyyət arzulayıb.

Əmanətlərin Sığortalanması Fondunun yeni təyin olunmuş icraçı direktoru Tural Piriyev dövlət başçısının ona göstərdiyi yüksək etimada görə minnətdarlığını bildirib və qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirəcəyini qeyd edib.

# İqtisadiyyat Nazirliyinə yeni təyin edilmiş rəhbər kadrların təqdimatı

Prezident İlham Əliyevin fərmanı ilə İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə nazirliyin strukturuna daxil olan xidmətlərin əsasnamələri təsdiq edilib, həmçinin dövlət başçısının müvafiq sərəncamları ilə bu strukturların rəhbərliyinə kadr təyinatları aparılıb.

İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazir Mikayıl Cabbarov nazirliyin yanında dövlət xidmətlərinə yeni təyin edilmiş rəhbər kadrları kollektivə təqdim edib. M.Cabbarov ölkə rəhbərliyinin İqtisadiyyat Nazirliyi qarşısında qoyduğu vəzifələri vurğulayaraq xidmətlərin fəaliyyətinin həyata keçirilən sosial-iqtisadi strategiyanın hədəflərinə xidmət etməli olduğunu qeyd edib. Bildirib ki, yeni təyin edilmiş kadrlar dövlət başçısının etimadını doğultmalıdırlar.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə Orxan Nəzərli İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə, Mətin Eynullayev İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə, Sahib Məmmədov isə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə rəis müavini təyin edilib. Onlar müvafiq dövlət xidmətlərinin rəisi vəzifələrini də icra edəcəklər.

# Ermənistan silahlı qüvvələri atəşkəsi 23 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Acarlı, Novruzlu, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Avropa İttifaqı Şurasının Şərq Tərəfdaşlığı siyasəti ilə bağlı qərarı Azərbaycan diplomatiyasının mühüm nailiyyətidir



"Mayın 11-də Avropa İttifaqı Şurası 2020-ci ildən sonra Şərq Tərəfdaşlığı siyasəti ilə bağlı Avropa İttifaqı və Şərq Tərəfdaşlığı çərçivəsində ölkələr arasında əməkdaşlığın bütün sahələrdə, o cümlədən iqtisadiyyat, enerji, alternativ enerji, təhlükəsizlik, beynəlxalq münasibətlər sistemi, eyni zamanda iqtisadi əməkdaşlığın gücləndirilməsi ilə bir çox sahələrdə qarşılıqlı əlaqələri özündə birləşdirən, həmçinin ölkələrin sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyünün təmin olunmasını xarakterizə edən yekun qərarını yayıb. Bu sənəddə Azərbaycan üçün xarici siyasətdə uğurlu çalarlar təşkil edən ən mühüm amillərdən biri də, əlbəttə ki, ərazi bütövlüyü, müstəqillik və suverenlik prinsiplərinin Avropa İttifaqı tərəfindən rəsmən təsdiq olunması və ölkələrin ərazisinin, sərhədlərinin toxunulmazlığı ilə bağlı müddəaların yer almasıdır. Sənəddəki bu müddəalar, həmçinin münaqişələrin beynəlxalq hüquq normaları çərçivəsində həllinin vacibliyi Avropa İttifaqı ilə Azərbaycan arasında yeni sazişlə bağlı danışıqlara dəstək ifadə olunmasının göstəricisidir və bizim üçün çox əhəmiyyətlidir". Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Ramil Həsən bildirib.

Deputat deyib ki, Helsinki Yekun Aktı Bəyannaməsindəki ərazi bütövlüyü məsələsi, eyni zamanda insanların hüquq və azadlıqlarının müdafiə olunması və qarşılıqlı ünsiyyətə əsaslanan münasibətlərin genişləndirilməsi ilə bağlı müddəada əksini tapan məsələlər Azərbaycan ilə Avropa İttifaqı arasında Prezident İlham Əliyevin də dəfələrlə vurğuladığı kimi, yeni səhifələr açmağa kömək edən amillərdən biridir. Sənədin 2-ci bəndində Şura tərəfindən eyni zamanda COVID-19 pandemiyasının səbəb olduğu hazırkı vəziyyətdə beynəlxalq tərəfdaşlarla həmrəylik və əməkdaşlığın əhəmiyyəti vurğulanır. Təbii ki, biz bu istiqamətdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə nüfuzlu beynəlxalq təşkilatlar çərçivəsində həyata keçirilən tədbirləri xüsusi qeyd etməliyik. Göründüyü kimi, Ümumdünya Səhiyyə Təşkilat, Avropa Yenidənqurma və İnkişaf Bankı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Birləşmiş Millətlər Təşkilatı və onun Baş Assambleyası, Avropa İttifaqı, Qoşulmama Hərəkatı kimi dünyanın öndə gələn nüfuzlu beynəlxalq təşkilatları ilə birgə təşkil olunan beynəlxalq tədbirlər həm bu təşkilatların rəhbərləri tərəfindən təqdir olunur, həm də dünya ictimaiyyəti tərəfindən ən yüksək səviyyədə dəyərləndirilir.

Əlbəttə ki, Avropa İttifaqının Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ regionunda martın 31-də keçirilən qondarma "seçkilər"lə bağlı yaydığı bəyanat və daha sonra mayın 11-də yaydığı bu rəsmi sənəddə ölkələrin ərazi bütövlüyünün təsdiqi Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın yeni mərhələdə, yeni müstəvidə qarşılıqlı anlaşmaya, hörmətə və eyni zamanda Azərbaycanın xarici siyasətində yürütdüyü taktiki gedişlərə müsbət reaksiya verilməsinin bariz nümunəsi kimi qəbul edilə bilər.

Ümumiyyətlə, Avropa İttifaqı uzun illərdir fəaliyyət göstərən, dünyanın ən önəmli bir bloku, ölkələri birləşdirən bir təşkilat olaraq Şərq Tərəfdaşlığı proqramını tətbiq etməklə yeni bir səhifə açıb. Şərq Tərəfdaşlığına üzv ölkələrlə Avropa İttifaqının, eyni zamanda ikitərəfli əməkdaşlığı da mövcuddur. Azərbaycan xarici siyasətində əsas elementlərdən biri hesab edilən Avropa İttifaqı ilə ikitərəfli əməkdaşlığa üstünlük verir. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, bu məqam sənədin 3-cü bəndində yer alıb. Burada Şura "əhatəlilik" (inclusiveness) və "fərqləndirmə" (differentiation) prinsiplərinə uyğun olaraq İttifaqla Şərq Tərəfdaşlığı ölkələri arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsini alqışlayır.

Qərarın 12-ci maddəsində nəqliyyat, enerji və rəqəmsal texnologiyalar sahəsində əməkdaşlıq məsələsinə xüsusi diqqət yetirilib. Məlumdur ki, Azərbaycan bu gün Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Bu gün Avropa İttifaqının enerji təminatı, eyni zamanda enerji resursları ilə bağlı həyata keçirdiyi irimiqyaslı Qərb-Şərq və Asiya-Avropa əməkdaşlığı çərçivəsində Azərbaycan həm xüsusi körpü rolunu, həm də etibarlı tərəfdaş rolunu oynamaqdadır. Bu baxımdan maddədə qeyd olunanların bilavasitə Azərbaycana aidiyyəti var. Sənəddə qeyd olunan amillər Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən enerji və nəqliyyat layihələrinin Avropa İttifaqı tərəfindən yüksək qiymətləndirildiyi mənasına gəlir. Ona görə də enerji siyasətinin həyata keçirilməsi beynəlxalq münasibətlər sistemində beynəlxalq təhlükəsizliyin əsas amillərindən biri hesab olunur.

Beynəlxalq təhlükəsizliyin əsas amillərindən biri kimi, əlbəttə ki, bu sahədə Azərbaycan - Avropa İttifaqı əməkdaşlığı xüsusi müstəvidə, başqa ölkələrdən fərqli, daha geniş sahələri əhatə edən, amma eyni zamanda unikal, özünəməxsus bir əməkdaşlıq prinsiplərini meydana çıxarır. Buna görə də sənədin 5-ci maddəsində Şura yeni çərçivə sazişi üçün Avropa İttifaqı ilə Azərbaycan arasında davam edən danışıqların gedişini alqışlayır. Bu baxımdan Prezident İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, Azərbaycan hücum diplomatiyasına üstünlük verməlidir. Azərbaycan öz haqq səsini bütün dünyada açıq və aydın şəkildə ifadə etməlidir. "Azərbaycanın beynəlxalq platformalardan öz haqq səsini dünyaya çatdırması, beynəlxalq təhlükəsizliklə bağlı addımlar atması, ümumiyyətlə, qlobal səviyyədə ölkəmizin mövqeyinin ortaya qoyulması üçün hücum diplomatiyası mühüm əhəmiyyət kəsb edir" tezisi dövlətimizin xarici siyasətində ana xətt hesab edilməlidir. Cənab Prezidentin bu istiqamətdə verdiyi bütün tapşırıqlar bu gün öz uğurlu bəhrəsini verməkdədir. Bu baxımdan Avropa İttifaqının qəbul etdiyi qərarlar və bu çərçivədə Azərbaycanın ərazi bütövlüyünün təsbit olunması ölkəmizin xarici siyasət fəaliyyətindəki uğurlara yeni çalarlar qatdı. Bu, çox mühüm məsələdir. Bu, gələcəkdə beynəlxalq münasibətlər müstəvisində Azərbaycanın mövqeyini daha da gücləndirəcək. Ümumiyyətlə, cənab Prezidentin xüsusilə vurğuladığı hücum diplomatiyası ən effektiv diplomatiyadır. Çünki hücum diplomatiyası ölkənin haqlı mövqeyinin qabarıq şəkildə ön plana çıxmasına şərait yaradır. Bu baxımdan Avropa qonşuluq siyasəti çərçivəsində, Şərq Tərəfdaşlığı proqramı çərçivəsində Azərbaycan - Avropa əlaqələrinə bu prizmadan yanaşılması da bizim haqq səsimizin daha geniş miqyasda eşidilməsinə və daha geniş platformalarda bizimlə qarşılıqlı hörmətə və ünsiyyətə əsaslanan münasibətlərin daha da inkişafına böyük təkan verib və verməkdə də davam edəcək.

Azərbaycan Prezidentinin bir çox platformalarda, "Valday" Beynəlxalq Diskussiya Klubunun sessiyasında, Davos Forumunda, Münxen Təhlükəsizlik Konfransında və bir çox beynəlxalq konfranslardakı qətiyyətli çıxışları, bilavasitə hücum xarakterli diplomatiyanı ön plana çıxarması və haqlı mövqeyimizi konkret faktlarla, unikal liderlik qabiliyyəti ilə dünya ictimaiyyətinin diqqətinə çatdırması hər birimiz üçün, xüsusən də xarici siyasətlə məşğul olanlar üçün mükəmməl bir örnək olmalıdır. Biz bu hücum diplomatiyasına hər zaman diqqət etməliyik. Əlbəttə, Azərbaycan parlamentinin beynəlxalq əlaqələr sahəsindəki fəaliyyətində bu məsələ öz əksini ən yüksək səviyyədə tapmalıdır. Eyni zamanda Azərbaycan parlamenti - Avropa İttifaqı əməkdaşlığında, habelə Şərq Tərəfdaşlığı proqramı çərçivəsində, ümumiyyətlə, Avropa institutları ilə birgə əməkdaşlıqda yuxarıda qeyd edilən istiqamətlər ana xətt olaraq qəbul edilməli və cənab Prezidentin düşünülmüş, konkret hədəflərə yönəlmiş uğurlu siyasətinin parlament diplomatiyası səviyyəsində həyata keçirilməsində hər zaman uğurlu addımlar atılmalıdır.

# Azərbaycan 4-cü sənaye inqilabına hazır olduğunu sübut edir

Heç kəs Prezident İlham Əliyevin apardığı iqtisadi siyasət sayəsində sənaye istehsalında böyük uğurlar qazanıldığını dana bilməz. Bu dövrdə ölkədə yüzlərlə kiçik, orta və iri sənaye müəssisələrinin fəaliyyətə başlamasını, yerli istehsalın artımı hesabına idxaldan asılılığın azalmasını, ixracınsa artmasını necə inkar etmək olar.



Dövlət başçısı ötən ilin yekunlarına həsr olunan müşavirədə Azərbaycanın qeyri-neft sektorunda, o cümlədən sənayedə əldə etdiyi uğurları yüksək dəyərləndirərək demişdir: "Hesab edirəm ki, keçən il iqtisadi sahədə əldə edilmiş nəticələr qənaətbəxşdir. Ümumi daxili məhsul 2,2 faiz artmışdır, bu, yaxşı nəticədir, xüsusilə nəzərə alsaq ki, qeyri-neft sektorunda bu artım 3,5 faizdir. Sənaye istehsalı 1,5 faiz artmışdır, ancaq qeyri-neft sektorunda sənaye istehsalı 14 faiz artmışdır. Bu da son illər ərzində sənaye sahəsində görülmüş işlərin təzahürüdür. Azərbaycanda sənaye istehsalı həm dövlət vəsaiti hesabına, həm də özəl sektorun fəaliyyəti nəticəsində artmışdır. Əminəm ki, bu artım bundan sonra da dayanıqlı olacaqdır".

Bəli, aparılan islahatlar sayəsində ölkə üzrə qeyri-neft sənayesinin inkişafı ildən-ilə sürətlənir. Bu, məhsul istehsalında özünü daha açıq şəkildə göstərir. Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, keçən il sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən istehsal olunan malların və göstərilən xidmətlərin həcmi 1,8 faiz artaraq 46,7 milyard manat təşkil edib. Sənayenin qeyri-neft sektorunda istehsal 2018-ci illə müqayisədə 14,3 faiz artıb və bununla sənayedə qeyri-dövlət sektorunun payı 82,1 faizə çatıb. Həmin dövrdə ümumi istehsalın 86,6 faizi sənaye məhsullarının istehsalı, 11,4 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına formalaşıb.

Prezident İlham Əliyev sözügedən müşavirədə bildirdi ki, qeyri-neft məhsulları ixracının uzunmüddətli strategiyası işlənməlidir və bu strategiya mövcud olan bazarlarla bağlı olmalıdır. Bununla yanaşı, yeni bazarlara da çıxış əldə edilməlidir. Dövlət başçısı həmçinin vurğuladı ki, yeni sənaye müəssisələrinin yaradılmasında özəl sektorun daha yaxından iştirak etməsi vacibdir. Hazırda dövlət əsas investor kimi çıxış edir. Ancaq qeyri-neft sektorunun inkişafında özəl sektorun fəal olması vacib şərtdir. Bunun üçün dövlət onlara hər cür şərait yaradır.

Qeyri-neft sənayesinin inkişafında kiçik və orta biznesin rolu böyükdür. Dünya təcrübəsi göstərir ki, məhsul istehsalının çox hissəsi bu növ sahibkarlıqla məşğul olanların payına düşür. Dövlət başçısının da qeyd etdiyi kimi, inkişaf etmiş ölkələrdə ümumi daxili məhsulun əsas hissəsi kiçik və orta sahibkarlıq subyektləri tərəfindən təmin edilir.

Azərbaycanda bu istiqamətdə texnopark və sənaye zonaları yaradılır. Həmin ərazilərdə bütün infrastruktur büdcə vəsaiti hesabına yaradılır. Burada iş görmək istəyən yerli və xarici sahibkarlara böyük güzəştlər edilir. Onlar xaricdən gətirdikləri mal və materiallara görə gömrük rüsumundan azad olunur, vergi sahəsində böyük güzəştlərdən istifadə edirlər.

Məlum olduğu kimi, Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Regional Mərkəzinin Azərbaycanda yaradılması haqqında Davosda niyyət protokolu imzalanmışdır. Bu, ölkəmizdə qeyri-neft sənayesinin inkişafı sahəsində görülən işlərə verilən yüksək qiymətdən irəli gəldi və belə bir sənədin imzalanması həmin mötəbər tədbirdə çox diqqətçəkən məqam idi. Protokol imzalanandan sonra Dünya İqtisadi Forumunun prezidenti Borge Brende Azərbaycan Prezidentinə müraciət edərək demişdir: "Siz qarşıya hədəf qoyanda onu həyata keçirirsiniz. Düşünürəm ki, Azərbaycan 4-cü sənaye inqilabına ən yaxşı hazır olan ölkələrdən biri olacaq".

Həqiqətən, bu gün ölkəmizdə dünya standartlarına uyğun yüksək keyfiyyətli məhsul istehsalı Azərbaycana olan inamı artırıb. Lakin bu, son hədd deyil, Azərbaycanda yeni texnoparkların yaradılması və mövcud texnoparklarda təzə müəssisələrin açılması istiqamətində dövlət sahibkarlara hər cür dəstək verir. Ən önəmlisi, bu sahədə yerli və xarici sahibkarlara fərq qoyulmur ki, bu da beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Çəltikçiliyə maraq artıb

*Əvvəli 1-ci səh.*



Elə bunun nəticəsidir ki, rayonda çəltik sahələri ildən-ilə genişlənir. Builki qeyri-sabit hava şəraiti fermerləri müəyyən çətinliklərlə üz-üzə qoysa da, ümumilikdə, təsərrüfatlarda çəltik əkininə hazırlıq mərhələsi artıq başa çatmaq üzrədir. Rayonda çəltikçiliklə məşğul olan ən iri təsərrüfatlar "Creen East" MMC, "Muğan düyü" MMC, "Cənub Aqro" MMC, "RUZ" MMC, "Faran" MMC və BETA firmasıdır.

Təsərrüfat sahələrində işlər qrafik üzrə davam etdirilir və əkindən ötrü nəzərdə tutulan şitillərə zəruri aqrotexniki qulluq göstərilir, əkin texnikası sazlanıb hazır vəziyyətə gətirilib, suvarma sistemi qaydaya salınıb. Beləliklə, çəltik əkini üçün zəruri tədbirlər həyata keçirilib və yaxın günlərdə çəltik şitilləri sahələrə köçürüləcəkdir.

"Creen East" MMC-nin baş aqronomu Fərman Abdullayevin sözlərinə görə, çəltikçilik sahəsində əldə olunun yüksək nəticələr əmək kollektivlərini hədsiz ruhlandırır. Ötən il "Creen East" MMC tərəfindən 100 hektarda çəltik əkilmişdisə, cari ildə 150 hektarda çəltik əkilməsi planlaşdırılıb. "Biz çəltik şitilinin yetişdirilməsini konveyer üsulu ilə həyata keçiririk, - deyən Fərman Abdullayev bildirir ki, istixana şəraitində yetişdirilən şitil daha sonra açıq havaya çıxarılır. Bu isə şitillərin mühitə uyğunlaşmasını təmin edir. Bu dövrdə həmçinin torpaq hamarlanır,ləklər hazır vəziyyətə gətirilir. Biz cari ildə yenə də ənənəvi "Haşimi" və "Apollo" düyü sortlarına üstünlük vermişik, çünki bu sortlar daha məhsuldardır."

F.Abdullayevin sözlərinə görə, çəltik əkini müasir texnikanın köməyi ilə həyata keçiriləcək. Əvvəllər əl əməyi ilə keçirilən əkin vaxt itkisinə səbəb olurdu. İndi isə Cənubi Koreyadan alınmış texnikalar vasitəsilə gün ərzində 2-3 hektarda əkin aparmaq mümkündür.

Qeyd edək ki, cari mövsümdə rayon üzrə ümumilikdə 1000 hektarda çəltik əkininin keçirilməsi nəzərdə tutulub. Koronavirus pandemiyası şəraitində lazımi qaydalara əməl edən kənd zəhmətkeşləri onlar üçün yaradılmış iş şəraitindən çox razıdırlar.

***S. CAVADOV,***
***"Azərbaycan"***

# Azərbaycanın ilk milli istehsalı olan "Laçın" tankeri xarici sularda üzəcək

Ötən ilin dekabrında Prezident İlham Əliyevin iştirakı ilə istismara verilən və ilk milli istehsalımız olan tanker tipli "Laçın" gəmisinin Azərbaycan bayrağı ilə xarici sularda fəaliyyət göstərməsinə qərar verilib.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-dən (ASCO) AZƏRTAC-a bildirilib ki, dizel yanacağı ilə yüklənmiş "Laçın" tankeri artıq ilk səfərinə hazırdır. Gəmi Bakı Limanından üzü Gürcüstanın Kulevi limanı istiqamətində səfərə yollanacaq. Volqa-Don kanalı ilə Rusiyanın daxili sularından keçərək Kulevidə də əlavə yüklənmə olduqdan sonra Türkiyəyə doğru istiqamət alacaq. "Laçın"ın apardığı yükün Türkiyənin Gebze limanına çatdırılması planlaşdırılır.

Daimi heyəti 11 nəfərdən ibarət gəmi bundan sonra Qara və Aralıq dənizləri hövzələrində maye yükdaşımaları həyata keçirəcək. Uzunluğu 141 metr, eni 16,9 metr olan yeni nəsil "Laçın" tankeri təkcə Azərbaycanın beynəlxalq yükdaşımalarda mövqeyinin möhkəmlənməsində deyil, xarici sularda ölkəmizin təmsil və təbliğində də mühüm rol oynayacaq.

# Biz birlikdə güclüyük!

## Baş Nazir xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə Qərar imzalayıb

Azərbaycanın Baş Naziri Əli Əsədov xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə Qərar imzalayıb. AZƏRTAC-ın məlumatına görə, Qərarla müəyyən edilib ki, 2020-ci il 31 may saat 00:00-dək Azərbaycan Respublikasının ərazisində tətbiq edilən xüsusi karantin rejimi dövründə aşağıdakı məhdudiyyətlər qüvvəsini saxlayır və həmin məhdudiyyətlərdən başqa, digər iş, xidmət sahələrində və istiqamətlərdə fəaliyyətə icazə verilir:

- *yük daşımaları istisna olmaqla, ölkə ərazisinə yerüstü və hava nəqliyyatı ilə giriş-çıxışın dayandırılması;*
- *xüsusi təyinatlı, o cümlədən təcili tibbi yardım, qəza-bərpa, xilasedici, habelə yük daşıyan avtomobillərin hərəkəti istisna olmaqla, Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinə və Abşeron rayonuna giriş-çıxış və ölkənin digər şəhər və rayonlarından yerüstü və hava nəqliyyatı ilə sərnişin daşımalarının dayandırılması;*
- *bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin dayandırılması;*
- *Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərində və Abşeron rayonunda dövlət orqanlarında (qurumlarında) xüsusi iş rejimində işə cəlb edilən işçilərin say həddinin Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən məhdudlaşdırılması;*
- *"ASAN xidmət" və "DOST" mərkəzləri istisna olmaqla, digər dövlət orqanlarında (qurumlarında) vətəndaşların yerində qrup və fərdi qaydada qəbulunun dayandırılması;*
- *dəfn mərasimləri istisna olmaqla, dini ritual xidmətləri, eləcə də mərasim zallarında, çadırlarda və digər qapalı məkanlarda yas mərasimlərinin təşkili və keçirilməsinin qadağan olunması;*
- *bütün kütləvi tədbirlərin, o cümlədən mədəni-idman tədbirlərinin keçirilməsinin dayandırılması;*
- *tədbirlərin təşkili üzrə xidmətlərin, o cümlədən bu sahədə müştərinin evində və ya digər məkanlarda ad günləri, toy, nişan və bu kimi mərasimlərin təşkilinin qadağan olunması;*
- *qrup halında fərdi tədris və repetitor xidmətlərinin (o cümlədən bu sahədə evlərdə xidmət) dayandırılması;*
- *ictimai yerlərdə, o cümlədən küçələrdə, bulvarlarda, parklarda və digər yerlərdə şəxslərin 10 nəfərdən artıq qruplarda cəmləşməsinin qadağan olunması;*
- *istirahət və əyləncə məkanlarının, həmçinin uşaq əyləncə məkanlarının (bulvar və parkların ərazisindəki daxil olmaqla) fəaliyyətinin dayandırılması;*
- *muzey və sərgi zalları istisna olmaqla, digər mədəniyyət obyektlərinin, eləcə də kinoteatrların, teatrların, idman zallarının fəaliyyətinin dayandırılması;*
- *nəzdindəki ərzaq mağazaları, apteklər və müştəri ilə təmasda olmayan obyektlər istisna olmaqla, ölkə ərazisində iri ticarət mərkəzlərinin fəaliyyətinin dayandırılması;*
- *ictimai iaşə obyektlərində qəlyan avadanlıqlarından istifadənin qadağan olunması;*
- *Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu üzrə ictimai iaşə məkanlarında, eləcə də restoran, kafe və çay evlərində bütün müştərilərə saat 18:00-dan 08:00-dək yerində xidmətin dayandırılması;*
- *tibb müəssisələrində müalicə alan şəxslərin xəstə yaxınları tərəfindən ziyarətinin qadağan edilməsi;*
- *idman, sağlamlıq-bərpa üzrə xidmətlərin dayandırılması (bu sahədə tibbi xidmətlər istisna olmaqla);*
- *masaj və hamam xidmətlərinin göstərilməsinin dayandırılması.*

Bu Qərar 2020-ci il 18 may tarixdən qüvvəyə minir.

## Xüsusi karantin rejimi dövründə sosial xidmətlər göstərilməsində iştirak edən işçilərin əhatə dairəsi müəyyənləşib

Baş Nazir Əli Əsədov xüsusi karantin rejimi dövründə sosial xidmətlər göstərilməsində iştirak edən işçilərin əhatə dairəsinin və əlavənin ödənilmə müddətinin müəyyən edilməsi barədə Qərar imzalayıb. AZƏRTAC xəbər verir ki, qərara əsasən, xüsusi karantin rejimi dövründə sosial xidmətlər göstərilməsində iştirak edən işçilərin əhatə dairəsi aşağıdakı kimi müəyyən edilib:

- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yanında Dövlət Sosial Müdafiə Fondunun rayon (şəhər) şöbələrinin sosial xidmət sektorunda çalışan işçilər;

- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yanında Dövlət Sosial Müdafiə Fondunun tabeliyində olan psixonevroloji, sağlamlıq imkanları məhdud uşaqlar üçün, pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisələrinin, habelə həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsinin və penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün Sosial Adaptasiya Mərkəzində çalışan işçilər.

Müddətli əlavə 2020-ci il aprelin 1-dən iyunun 1-dək olan müddət üçün iş vaxtına mütənasib olaraq ödənilir.

Qərarda, həmçinin Əmək və Əhalinin Sosial Müdafiəsi və Maliyyə nazirliklərinə bu Qərardan irəli gələn məsələləri həll etmək barədə tapşırıq verilib.

## Azərbaycanda koronavirusa daha 158 nəfər yoluxub, 58 nəfər sağalıb

Azərbaycanda koronavirus infeksiyasına daha 158 yoluxma faktı qeydə alınıb, 58 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, hazırkı dövrədək ölkəmizdə 3138 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1944 nəfər müalicə olunaraq sağalıb, 36 nəfər vəfat edib, 1158 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 41 nəfərin vəziyyəti ağır, 52 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 226.005 test aparılıb.

## Bu məsuliyyətli günlərdə ölkə dindarları Azərbaycan dövlətinin yanındadır

Son aylar bütün dünyanı bürümüş koronavirus pandemiyası bütün bəşəriyyət üçün bir sınaq poliqonuna çevrilmişdir. Ötən müddətin təcrübəsi göstərir ki, bütün gözlənilməz hallara, hadisələrə hazır olan, xalq tərəfindən dəstəklənən dövlətlər və mütəşəkkil cəmiyyətlər bu ağır imtahanın öhdəsindən bacarıqla gəlir, daha az itkilərə məruz qalır və problemləri dəf etməkdə daha çox bacarıq göstərirlər. Azərbaycanı əminliklə məhz bu dövlətlərin sırasına aid etmək olar. Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə dövlətimiz bu bəlanın törədə biləcəyi fəsadları qarşılamaq və onların nəticələrini minimuma endirmək üçün vaxtında və ən zəruri addımları ataraq, bir çox inkişaf etmiş ölkələrin rastlaşdığı şok durumun yaranmasına imkan vermədi.



Çox böyük peşəkarlıqla və uzaqgörənliklə düşünülmüş qabaqlayıcı tədbirlərin həmişəki kimi bir ünvanı, bir hədəfi var idi: Azərbaycan insanının rifahının və sağlamlığının qorunub saxlanılması. Bu cür niyyət bir çox ciddi məhdudlaşdırıcı ölçülərin də tətbiqini qaçılmaz edirdi: karantin rejiminin tətbiqi, sahibkarlıq subyektlərinin fəaliyyətinin kəskin şəkildə çərçivəyə salınması, bir çox hallarda isə tamamilə dayandırılması, kütləvi tədbirlərin, o cümlədən dini ayin və mərasimlərin keçirilməsinin qadağan olunması, ənənəvi təhsil prosesinin bütün səviyyələrdə videoformata keçməsi, digər bu qəbildən olan tədbirlər... Lakin belə məhrumiyyətlərlə üzləşən vətəndaşlarımız öz dövlətlərinin sosial qayğısını da dərhal hiss etdilər. Yüz minlərlə aztəminatlı insanlara müavinətlərin ödənilməsinə, özəl sektorun zərər çəkmiş 700 minə yaxın işçisinin əməkhaqqının xeyli hissəsinin kompensasiya edilməsinə başlanıldı, dövlət xidmətində olanların isə bütövlükdə əməkhaqları saxlanıldı, vergi və digər sosial ödəmələr üzrə əhəmiyyətli güzəştlər müəyyən edildi, xəstəxanalar və zəruri tibbi ləvazimatlar istehsal edən obyektlər inşa edildi və s. Bunlar dövlətimizin öz insanı adına atdığı humanist yönlü çoxsaylı addımlarının yalnız bir hissəsidir.

Qürurverici hal həm də budur ki, dövlətimiz, onun başçısı hörmətli İlham Əliyev koronavirusla bağlı problemlərin həlli istiqamətində təkcə milli müstəvidə deyil, həm də regional və beynəlxalq səviyyələrdə keçirilən tədbirlərdə çox səmərəli işlər görür. Türk Şurasının və Qoşulmama Hərəkatının videokonfrans formatında təşkil olunmuş Zirvə görüşlərində, ayrı-ayrı dövlət başçıları ilə videobağlantılarında Prezidentimiz pandemiya ilə mübarizədə ölkəmizin müsbət təcrübəsini bölüşmüş, bu sahədə səylərin birləşdirilməsi və əlaqələndirilməsi üçün konkret və kəsərli təkliflərlə çıxış etmişdir. Onun bu təşəbbüsləri beynəlxalq təşkilatların və dövlətlərin rəhbərləri tərəfindən yüksək dəyərləndirilmişdir. Bu, bir daha Prezident İlham Əliyevi beynəlxalq səviyyəli, müdrik və bacarıqlı lider kimi səciyyələndirir.

Qlobal xarakter daşıyan bu cür bəlaların qarşısının alınmasına, təbiidir ki, tək dövlətin səyləri nəticəsində nail olmaq mümkün deyildir. Bunun üçün cəmiyyətin bütün təbəqələri, institutları, insanları vahid məqsədə köklənməlidirlər. Xalq-dövlət birliyinin hökm sürdüyü ölkəmizdə bu gün hörmətli Prezidentimizin söylədiyi kimi, "bütün cəmiyyət bu mübarizədə birləşib", "həmrəylik ən yüksək səviyyədədir". Cəmiyyətin ən fəal kəsimləri kimi dindarlarımız və onların korporativ birlikləri olan dini qurumlar da bu mübarizənin ön sıralarında dövlətimizin yanındadır.

Xəstəlik təhdidinin elə ilk günlərindən etibarən Qafqaz Müsəlmanları İdarəsi (QMİ), onun yerli icmaları, müsəlman din xadimləri müqəddəs islam dininin insan həyatına və sağlamlığına verdiyi dəyəri (Qurani-Kərimin birbaşa göstərişinə görə, heç kəs öz əli ilə özünü təhlükəyə atmalı deyildir) nəzərə alaraq və vəziyyətin kəskinliyini düzgün qiymətləndirərək çox fəal təşkilati tədbirlər görməyə başladılar. Martın 5-də QMİ-də qurumun başçısı hörmətli Şeyxülislam Allahşükür Paşazadənin təşəbbüsü və sədrliyi ilə idarənin Qazılar Şurasının və bölgələr üzrə səlahiyyətli nümayəndələrinin, dini konfessiya və müvafiq dövlət qurumlarının rəhbərlərinin iştirakı ilə toplantı keçirildi. Vəziyyəti tam əhatəli və gerçəkcəsinə dəyərləndirməyi bacaran hörmətli Şeyximiz və qazılarımız dindarlara müraciət edərək, kütləvi yoluxma riskini nəzərə alıb, vətəndaşlarımızın sağlamlığı naminə müvəqqəti olaraq məscidlərimizdə moizələrin və birgə ibadətlərin, məsciddaxili bütün tədbirlərin, mövlud, şəhadət, ehsan məclislərinin təxirə salınmasını tövsiyə etdilər. Müsəlman din xadimlərimiz həmin anda çox yaxşı anlayırdılar ki, islamda çox yüksək dəyərləndirilən birgə ibadətlərin, ayin və mərasimlərin məhdudlaşdırılması (faktiki olaraq dayandırılması) təklifi nə qədər məsuliyyətli bir işdir. Bununla belə elə növbəti cümə günü göstərdi ki, ölkə müsəlmanlarının böyük əksəriyyəti vəziyyəti kifayət qədər düzgün qiymətləndirə biliblər. Cümə namazına gələnlərin sayı kəskin şəkildə azaldı.

Burada bir incə məqama da toxunmağı zəruri hesab edirik. Dövlət koronavirus infeksiyası ilə bağlı qəbul etdiyi qərarların hamısında insanların konstitusion hüquqları ilə bağlı bütün məsələlərə, o cümlədən dini etiqad azadlığına xüsusi diqqətlə yanaşır. Azərbaycanın dünyəvi prinsiplərə uyğun olaraq idarə edildiyini və dini işlərə müdaxiləsinin minimum olduğunu göz önünə alan Azərbaycan hökumətinin dini ayin və mərasimlərlə bağlı atdığı bütün addımlarında insanların bu cür məsələlərə necə həssaslıqla yanaşması amilini nəzərə aldığının da şahidi oluruq. Baxın, dövlət martın 14-də kütləvi tədbirlərin (bir çox birgə ibadət ayin və mərasimlər də məhz bu formatda həyata keçirilir) təxirə salınmasına qərar verərkən artıq QMİ 10 gün öncə, digər dini konfessiyaların rəhbərləri ilə birlikdə, dövlətin heç bir müdaxiləsi olmadan yuxarıda istinad etdiyimiz tövsiyəni və dindarların bu qərara reaksiyasını nəzərə almışdı. Başqa sözlə, bu cür qabaqlayıcı addımların ölkənin dindar kəsimi tərəfindən zəruri ölçü kimi qarşılanacağına əmin idi. Başqa bir örnək: Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarı ilə mərasim zallarında, çadırlarda və digər qapalı məkanlarda yas mərasimlərinin keçirilməsi qadağan olunsa da müsəlmanlar üçün son dərəcə vacib olan dəfn mərasimləri istisna edilir. Burada isə artıq müsəlman din xadimlərimiz özləri sosial məsuliyyət nümayiş etdirərək dəfn mərasimlərinin də daha az insanlarla və daha qısa müddət ərzində başa çatdırılmasına çalışırlar.

Əlbəttə ki, müsəlman din xadimlərinin hər zaman olduğu kimi, bu cür günlərdə də əsas missiyalarından biri ilahi sözlə dindarlara dəstək olmaq, onları səbirli və dözümlü olmağa, müəyyən edilmiş davranış qaydalarına riayət etməyə dəvət etməkdən ibarət olmuşdur. Hörmətli Şeyximiz, tanınmış din xadimlərimiz televiziya kanallarında, digər KİV-də, videoformatda keçirilən və sosial şəbəkələrdə geniş yayılan moizələrdə, karantin və ramazan ayı ilə bağlı fətvalarda, sosial izolyasiya şərtləri çərçivəsində həyata keçirilən fərdi söhbətlərində dindarları istisnasız olaraq müəyyən edilmiş xüsusi karantin rejiminin tələblərinə, həkimlərin göstərişlərinə riayət etməyə dəvət edir, şəriətdə vacib olmayan, dini adət-ənənələrimizə söykənən dini mərasimlərin (ehsan, mövlud və s.) keçirilməməsi tövsiyə edilir, şəri baxımından vacib olan dəfn mərasimlərinin məhdud qaydada keçirilməsi tələb olunurdu. Eyni zamanda onlara məsləhət görülürdü ki, ümidsizliyə qapılmasınlar, dövlət başçısı, Birinci vitse-prezident bu bəladan gələn fəsadların qarşısını almaqdan ötrü uca Allahımızın köməyi ilə hər şeyi edirlər.

Bu ağır günlərdə QMİ islam dininin əsas sütunlarından biri olan paylaşmaq və xeyriyyəçilik missiyasını da yaddan çıxarmır. Hər gün idarəmizə dini icmalarımız və din xadimlərimiz tərəfindən pandemiyadan zərər çəkən insanlara mənəvi dəstəklə yanaşı, maddi yardım göstərilməsi barədə də çoxsaylı məlumat daxil olur. Araşdırmalar göstərir ki, karantin rejiminə görə daxil olan ianələrin kəskin şəkildə azalmasına baxmayaraq, fəaliyyətdə olan məscidlərimizin mütləq əksəriyyəti, ayrı-ayrı din xadimləri fərdi şəkildə bu xeyirxah missiyada iştirak etmişlər. Təbii ki, bu prosesdə dindar icma üzvlərimizin şəxsi töhfələrini də nəzərə almaq lazımdır. QMİ və onun mərkəzi aparatının əməkdaşları və din xadimlərimiz Koronavirusla Mübarizəyə Dəstək Fonduna 100 min manatdan artıq pul vəsaiti köçürmüşlər. Müsəlman din xadimlərimiz tərəfindən digər ünvanlı yardım tədbirləri də görülmüşdür (şəri normalar tərəfindən göstərilən yardımla bağlı məlumatın geniş yayılması o qədər də bəyənilmədiyi üçün bu sahədə gördüyümüz işlərin az bir hissəsi barədə burada bilgi təqdim edilir).

Ölkəmizin yaxın tarixində baş vermiş bu cür böhranlı anlarla çox rastlaşmış, millət, cəmiyyət və dövlətçilik naminə müdrik qərarlar qəbul etməyə nail olmuş, həmişə haqqın yanında olan möhtərəm Şeyximizin pandemiya dövründə fəaliyyəti ayrıca bir mövzunun söhbətidir. O, bu müddət ərzində keçirdiyi bütün iki və çoxtərəfli görüşlərində, o cümlədən KAICIID Beynəlxalq Dialoq Mərkəzinin Direktorlar Şurasının (Şeyximiz bütün dünyada tanınan bu nüfuzlu təşkilatın rəhbərliyində təmsil olunan yeganə müsəlman din xadimidir) videokonfransında, dini konfessiyaların rəhbərləri ilə keçirdiyi mütəmadi görüşlərdə, beynəlxalq səviyyəli yazışmalarında Azərbaycanda pandemiyaya qarşı görülən tədbirlərdən söz açmaqla yanaşı, öz dəyərli məsləhət və tövsiyələrini bölüşür. Bu arada Şeyximizin milyonlarla soydaşımızın və dindaşımızın yaşadığı İrana qarşı sanksiyaların bu ağır günlərdə ləğv edilməsi barədə ABŞ Prezidenti Donald Trampa müraciəti də ölkə daxilində və beynəlxalq ictimaiyyət tərəfindən yüksək dəyərləndirilmişdir. Baxmayaraq ki, qəbul olunan bütün qərar və tövsiyələri özünün qəbul etməyə səlahiyyəti, nüfuzu, həyat təcrübəsi və təbii ki, müdrikliyi çatırdı, bütün Qafqaz müsəlmanlarının lideri hər dəfə bununla bağlı ölkənin müsəlman din xadimləri, digər konfessiyaların rəhbərləri, ölkə ağsaqqalları ilə videoformatda və telefon vasitəsilə müvafiq məsləhətləşmələr aparır, onların rəy və təkliflərini öyrənir. Bu məsuliyyətli günlərdə o, özünün beynəlxalq səviyyədə tanınmış və nüfuzlu dini lider imici ilə birlikdə çox böyük dövlətçilik məfkurəsinə sahib olduğunu da bir daha sübut etdi. O, özünün bütün çıxış və müraciətlərində, qərar və tövsiyələrində pandemiya dövründə dövlət başçısı möhtərəm İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın, hökumətimizin həyata keçirdiyi siyasəti yüksək dəyərləndirir, dindarlarımızı da bu siyasəti dəstəkləməyə çağırır. Möhtərəm Şeyximiz müraciətlərinin birində deyir: "Şükürlər olsun ki, dövlətimiz tərəfindən xəstəliyin aradan qaldırılması üçün bütün lazımi tədbirlər görülür, insanlarımız diqqət və qayğı ilə əhatə olunmuşlar... Dindarları, dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlarımızı hökumətimizin tövsiyə və qərarlarına əməl etməyə, dualar edərək sabaha ümidlə baxmağa çağırırıq. İnanırıq ki, Allahın köməyi ilə, dövlət başçımızın rəhbərliyi ilə görülən tədbirlər öz müsbət nəticəsini verəcəkdir". Öz sosial məsuliyyətlərini dərindən dərk edən Azərbaycan dindarları da bu çağırışa səs verərək dövlətimizin həyata keçirdiyi tədbirlərin səmərəliliyinə inanır və hər zamankı kimi, onun yanında olduğunu bəyan edir.

***Simran HƏSƏNOV,***
***Qafqaz Müsəlmanları İdarəsinin aparat rəhbəri, hüquq üzrə fəlsəfə doktoru***

# Karantin rejimi növbəti dəfə yumşaldılır

*Əvvəli 1-ci səh.*

Mayın 15-də Nazirlər Kabineti yanında Operativ Qərargahda keçirilən brifinqdə TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı bildirdi ki, xüsusi karantin rejimindən mərhələli şəkildə çıxmaq ehtimalı ola bilər. Bu yükün artması və yumşalma prosesi vətəndaşların sosial məsuliyyətindən asılıdır: "Virusla yaşamağa öyrəşməliyik. İlin sonuna kimi vəziyyət belə olacaq".

### Maska taxılmalı, məsafə saxlanılmalı, gigiyenaya fikir verilməlidir

Ancaq onu da qeyd etməliyik ki, bölgələrdə karantin rejiminin yumşaldılması ölkədəki ab-havanı dəyişdi. Sanki virus təhlükəsi rayonlardan yan keçmiş sayıldı və vətəndaşlar qaydalara əməl etməməklə vəziyyəti bir qədər gərginləşdirdilər. Bir neçə rayonda virusa yoluxma halı getdikcə artdı. Səbəb isə bəllidir - vətəndaşların maska taxmaması, məsafə saxlamaması, dezinfeksiya vasitələrindən istifadə edilməməsi...

Bu durum ölkədə ikinci dalğanın başlanmasına işarə idi. Məhz buna görə Prezident İlham Əliyev xalqa bir daha müraciət edərək hər kəsi karantin rejiminə əməl etməyə çağırdı: "İndiki şəraitdə karantin rejiminin təmin edilməsi, gözlənilməsi pandemiyaya qarşı mübarizə işində əsas məqsədlərdən biridir. Biz üç həftənin müsbət dinamikasını nəzərə alaraq, aprelin 27-dən etibarən yumşalma addımlarımızı atmağa başladıq. Çünki başa düşürük ki, bu, hər kəs üçün çox çətin dövrdür. Ancaq gördük ki, yumşalma tədbirləri artıq başlayan kimi yoluxanların sayı artmağa başladı. Nəyə görə? Çünki vətəndaşlar bir çox hallarda məsuliyyətsizlik göstərirlər, onlara tövsiyə olunan qaydalara əməl etmirlər, maska taxmırlar, məsafə saxlamırlar, dezinfeksiya vasitələrindən istifadə etmirlər. Beləliklə, öz həyatlarını və onlarla təmasda olan yüzlərlə insanın həyatını risk altına atırlar. Ona görə mən bir daha Azərbaycan vətəndaşlarına müraciət etmək istəyirəm, bu qaydalara əməl etmək o qədər də çətin deyil. Həkimlər, mütəxəssislər deyirlər ki, indi əsas şəxsi gigiyenaya fikir vermək, dezinfeksiya vasitələrindən istifadə etmək, bir metr yarım, iki metr məsafə saxlamaq və maska taxmaq lazımdır. Çətin məsələ deyil. Ona görə bütün vətəndaşlardan bir daha xahiş edirəm ki, bu qaydalara əməl etsinlər".

Dövlət başçısının müraciətindən sonra ölkədə yoluxma hallarında azalma müşahidə olundu. Lakin bir müddətdən sonra yenidən bölgələrdəki vəziyyət göstərdi ki, bəzi yerlərdə hələ də karantin rejiminin qaydalarına məsuliyyətlə yanaşılmır.

### SMS icazə, iş yeri barədə arayış sistemi ləğv edilir

Mayın 15-də koronavirus infeksiyası ilə bağlı Azərbaycandakı sanitar-epidemioloji vəziyyət, ölkə əhalisi arasında virusa yoluxanların ümumi sayı və xəstələrin sağalma dinamikası nəzərə alınaraq, xüsusi karantin rejimi çərçivəsində tətbiq edilən məhdudiyyətlərin daha bir qisminin yumşaldılmasına qərar verildi.

Beləliklə, may ayının 18-dən etibarən ölkədəki ümumi durum nəzərə alınaraq karantin rejimi bir qədər də yumşaldılır. Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu üzrə yaşayış yerini SMS icazə ilə, "icaze.e-gov.az" portalında qeydiyyatdan keçməklə, xidməti vəsiqə və ya iş yeri barədə arayış əsasında tərk etmək sistemi ləğv olunur. Bulvar, park və istirahət məkanlarına girişə tətbiq olunan məhdudiyyət 10 nəfərdən artıq qruplarda cəmləşməmək şərti ilə götürülür. Restoran, kafe, çay evlərində, eləcə də bütün ictimai iaşə məkanlarında müştərilərə yerində xidmət saat 08:00-dan 18:00-dək bərpa olunur.

Ali Məhkəmədən verilən məlumata görə, ölkədə həmçinin xüsusi karantin rejimi ilə əlaqədar məhkəmələrin fəaliyyətinə qoyulan məhdudiyyət ləğv edilir. Məhkəmələrə işlərə baxılması ilə bağlı tövsiyə edilib ki, Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonunun inzibati ərazisində fəaliyyət göstərən bütün məhkəmələr üzrə mayın 18-i saat 00:00-dan etibarən işlərin qəbulu və baxılması tam şəkildə bərpa olunacaq. Qeyd edək ki, Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonunun inzibati ərazisində fəaliyyət göstərən məhkəmələr istisna olmaqla, digər məhkəmələrdə proseslər bu ayın əvvəlindən bərpa olunmuşdu.

Hazırda Azərbaycan pandemiya ilə mübarizənin ikinci mərhələsindədir. Bu mərhələ məhdudiyyət şərtlərinin tədricən aradan qaldırılması mərhələsi adlandırılır.

Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov vurğulayıb ki, yumşalma qərarı karantin rejimindən çıxışın üçüncü mərhələsi hesab olunur. Çünki öncə aprelin 27-dən etibarən ölkədə yumşalmanın birinci mərhələsi tətbiq olundu. Birinci mərhələdə konkret ünvan göstərilərək bütün ölkə üzrə ticarət və xidmət obyektlərinin fəaliyyətinə icazə verilmişdi. Mayın 4-dən etibarən isə ölkə sarı və narıncı zonalara bölünərək, yumşalma prosesində ikipilləli, ikisürətli selektiv yanaşma metodu tətbiq edilməyə başlanıldı. Yumşalma dövründə yoluxma hallarının sayında artım müşahidə olundu, lakin ümumi proses idarəolunandır. Ötən qısa müddət ərzində aidiyyəti qurumlar təşkilati, tibbi-müalicəvi təcrübə əldə ediblər. Həmçinin aidiyyəti qurumlar ciddi maddi-texniki baza yaratmağa nail olublar. Səhiyyə potensialı genişləndirilib. Maddi-texniki baza və müvafiq infrastruktur yaradılıb: "Bütün bunlar bizə imkan verir ki, koronavirusa qarşı mübarizə ilə paralel olaraq, həm də həyatımızı davam etdirək, işləyək. Problemlə paralel yaşamağa öyrənməliyik və növbəti mərhələ də elə bunu nəzərdə tutur", - deyə İbrahim Məmmədov qeyd edib.

### 65 yaşdan yuxarı insanların evdən çıxma qadağası götürülür

Operativ Qərargahın məlumatına əsasən mayın 18-dən bütün ölkə üzrə muzey və sərgi zallarının fəaliyyəti bərpa olunur. Həmçinin 65 yaşdan yuxarı insanların evdən çıxmasına tətbiq olunan qadağa götürülür.

Bununla belə 65 yaşdan yuxarı şəxslər COVID-19 virusuna yoluxmada risk qrupuna daxil olduğundan evdən zəruri hallarda çıxmaq tövsiyə edilir. Eyni zamanda insanların sıx toplaşdığı məkanlarda olmamaq, sosial məsafənin gözlənilməsi, qoruyucu vasitələrdən istifadə zəruridir.

Ancaq hazırda xüsusi karantin rejimi müddətində ölkə üzrə bəzi məhdudiyyətlər də qüvvədə qalır. Bunlar yük daşımaları istisna olmaqla, ölkə ərazisinə yerüstü və hava nəqliyyatı yolu ilə giriş-çıxışın dayandırılması, Bakı və Sumqayıt şəhərlərinə və Abşeron rayonuna, eləcə də Gəncə və Lənkəran şəhərlərinə giriş-çıxış və ölkənin digər şəhər və rayonlarından yerüstü və hava nəqliyyatı ilə sərnişin daşımalarının dayandırılması prosesidir.

### Toy və yas məclislərinin təşkili hələ də qadağandır

Həmçinin bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin dayandırılması, Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonunda dövlət qurumlarında işçilərin say həddinin məhdudlaşdırılması, dəfn mərasimləri istisna olmaqla dini ritual xidmətləri, eləcə də mərasim zallarında, çadırlarda və digər qapalı məkanlarda yas mərasimlərinin təşkili və keçirilməsinin qadağan olunması, toy məclislərinin təşkilinin qadağan olunması, bütün kütləvi tədbirlər, o cümlədən mədəni-idman tədbirlərinin keçirilməsi, masaj və hamam xidmətlərinin göstərilməsinə qoyulan qadağalar qüvvədə qalır.

Fəaliyyətinə icazə verilən sahələr üzrə iş rejimi pandemiya dövründə Operativ Qərargah tərəfindən təqdim olunan zəruri sosial davranış və sanitar-epidemioloji qaydalara, metodiki göstərişlərə uyğun həyata keçirilməlidir.

Qadağaların götürülməsi, karantin rejiminin yumşaldılması əhalidə arxayınçılıq yaratmamalıdır. Çünki virusla mübarizə uzunmüddətli proses olduğundan xəstəliyə qarşı qabaqlayıcı tədbirlər hər bir şəxsin gündəlik həyat tərzinə çevrilməlidir. Bu baxımdan COVID-19 ilə bağlı hazırkı vəziyyətdə hamını şəxsi gigiyena, eləcə də tibbi-profilaktik qaydalara əməl etməyə, evdən yalnız ciddi ehtiyac yarandıqda çıxmağa, ictimai yerlərdə kənar şəxslərlə minimum kontaktda olmağa, mövcud preventiv tədbirlərin şərtlərinə əməl etməyə çağırırıq. Mövcud sanitar-epidemioloji vəziyyətə uyğun olaraq qoruyucu vasitələrdən istifadə və sosial məsafənin gözlənilməsi mütləqdir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***





# Mədəniyyət





● Unudulmazlar

**Maraqlıdır, şairlərin, müğənni və xanəndələrin əksəriyyətinin peşəsi həkimlikdir, hətta mətbuatda çalışanların da bəziləri daha çox tibb ixtisaslıdırlar. İlk baxışdan burada bəlkə də qeyri-adi heç nə yoxdur. Əslində isə fərqinə varmadığımız məqamlar var. Elə məşhur söz sərraflarımızın, dühalarımızın adlarını çəkə bilərik ki, onlar da ixtisasca həkim-loğman olublar.**



# Həkim-tarzən

## Xalq artisti Hacı Məmmədovun "trio"su sənət zirvəsinə ucalmışdı

Musiqi aləmində də buna az rast gəlmirik. Uşaq yaşlarından musiqiyə həvəs göstərən və hələ 11 yaşında ikən xalq çalğı alətləri orkestrinə qəbul edilən tarzən, Xalq artisti Hacı Məmmədov da ixtisasca həkim olub.

1920-ci ildə Şamaxı şəhərində dünyaya göz açmış Hacı uşaq vaxtlarından tar çalmağa həvəs göstərib. Lakin o, 1948-ci ildə Azərbaycan Dövlət Tibb Universitetini bitirərək, 1970-ci ilədək həkim-cərrah kimi fəaliyyət göstərib.

Həkimin uşaqlıqdan musiqiyə olan həvəsi ötəri olmayıb. Ona görə də nə musiqi məktəbi bitirib, nə də tarzən yanına gedib. Tarda çalmağı müstəqil öyrənib. Peşəkar tarzən səviyyəsinə qalxan Hacı Məmmədov bir müddət Azərbaycan Xalq Çalğı Alətləri Orkestrində çalışıb. Sonra o, artıq M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının solisti kimi tanınıb.

40 ildən çox filarmoniyada işləyən Hacı Məmmədovun şux, oynaq ifa tərzi həmişə diqqəti cəlb edib. Təsadüfi deyil ki, o, rus və Qərbi Avropa müəlliflərinin klassik əsərlərinin tarda ilk ifaçısı olub.

"Orta Mahur", "Çoban-bayatı" və bir çox xalq mahnımız Hacı Məmmədovun ifasında məşhurlaşıb.

Maraqlıdır ki, Hacı Məmmədovun tibbi təhsil alması heç də özünün istəyi ilə olmayıb. Sadəcə, könül sevdasına qovuşmaq üçün o, həkimlik peşəsini məcburən seçib. Gələcək ömür-gün yoldaşı Aliyə xanımın valideynləri öz qızlarını artistə, musiqiçiyə vermək istəməyiblər.

Hacı Məmmədovun tar ifaçılığı sənəti özündən sonrakı sənətkarların da yüksək peşəkarlığına səbəb olub. Xalq artisti Möhlət Müslümov deyir ki, Hacı Məmmədov elə-belə sənətkar olmayıb: "Sadıqcan, Qurban Pirimov, Bəhram Mansurov, Mirzə Mənsur, Məmmədağa Muradov tarın korifeyləridir. Hacı Məmmədov və Əhsən Dadaşov isə mənim ideallarımdır".

Buna görə deyə bilərik ki, Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlər göstərmiş sənətkarlardan biri də görkəmli tarzən Hacı Məmmədovdur.

Milli musiqimizdə çox peşəkar sənətkarlar olub. Hacı Məmmədovun ifaçılığı isə ayrıca bir məktəb hesab edilir. Qurban Pirimov, Bəhram Mansurov kimi böyük sənətkarların yaratdığı sənət məktəbindən dərs alan Hacı Məmmədov milli musiqimizin ən görkəmli nümayəndələrindən biri kimi də adını musiqi tarixinə yazdırıb. Hələ onu demirik ki, Bülbül, Seyid Şuşinski, Zülfü Adıgözəlov, Əbülfət Əliyev, Rəşid Behbudov, Şövkət Ələkbərova, Yaqub Məmmədov, Rübabə Muradova, Sara Qədimova və başqa görkəmli sənətkarları tarda dəfələrlə müşayiət edib.

Hacı Məmmədovun yaradıcılığında muğamlar xüsusilə seçilir və bir zirvə hesab olunur. Bu sənət inciləri içərisində "Orta Mahur" tamamilə fərqlidir. Ustad bu muğamı elə ifa edirdi ki, ona qulaq asanlar bunu bir möcüzə sanırdılar. Hacı Məmmədov doğrudan da virtuoz ifaçı idi. Tara olan qeyri-adi məhəbbətinin və vurğunluğunun nəticəsi idi ki, ifasından kimliyini təyin etmək mümkün olurdu. Əlbəttə, belə bəxtiyarlıq hər sənətkarın taleyinə yazılmır.

Hacı Məmmədovun uşaqlıqdan tara olan həvəsi və marağı təsadüfi deyildi. Ailədə musiqiyə, xüsusən tar ifaçılığına böyük maraq olub. Atası Məhəmməd tarda gözəl ifa edirmiş. Hələ musiqini incəliklərinədək bilməyən Hacı Məmmədov sonralar xatirələrində qeyd edirdi ki, o, saatlarla atasını dinləməkdən yorulmazdı: "Əmimgilin həyətində bir tarzən yaşayırdı. Tarı onun yanına apardım. Xahiş etdim ki, kökləsin. O da tarı alıb köklədi. Sevincək evə qayıtdım. Başladım radioda çalınan havaları öz-özlüyümdə tarın pərdələrində axtara-axtara çalmağa. Təxminən bir il gecə-gündüz öz üzərimdə çalışdım. 1930-cu il idi. Eyni həyətdə yaşadığımız Rəşid Əfəndiyev məni yanına çağırdı və səmimi söhbət etdi. Ertəsi gün o, məni Azərbaycan Dövlət Xalq Çalğı Orkestrinin rəhbəri ilə tanış etdi. Sabahısı gün orkestrə gəldim. Orkestr üzvləri mənim tar çalmağımdan heyrətə gəldilər. Onda on bir yaşım vardı..."

1929-cu ilin bir qış günü əmisi Hüseynlə şəhərə gəzintiyə çıxan Hacı musiqi alətləri satılan dükanın qarşısından keçəndə vitrində tar görür. Ayaq saxlayıb, dönüb diqqətlə tara baxır. Əmisi onun bu halını görür və tarı Hacıya alır.

Həmin tarı sevgiylə sinəsinə sıxan Hacı 8 yaşından ömrünün sonuna qədər ondan ayrılmayıb. Hacı Məmmədov dünyasını dəyişəndən sonra isə həmin tar illər boyu ustad tarzənlə sənət dostluğu edən, sevimli tələbəsi, Xalq artisti Ağasəlim Abdullayevin sinəsində dil açıb. Ustadına kəm baxmayan şəyird həmin tarda məhz Hacı Məmmədovun məharətlə ifa etdiyi muğamları ehtiramla və özünəməxsus ustalıqla səsləndirib.

Bu gün "Qızıl fond"da Hacı Məmmədovun özünəməxsus tərzdə ifa etdiyi "Zabul Segah", "Bayatı-Şiraz", "Şur", "Çahargah", "Orta Mahur" və digər muğamlar qorunur. Ustad sənətkarın həyat yoldaşı Aliyə xanım xatirələrində yazırdı: "Hacı yeganə sənətkar idi ki, özünəməxsus və bənzərsiz bir yol keçdi və məktəbini yaratdı. Onun bütün qələbələrinin ruhunda sədaqətli ürək döyünürdü. Hörmət və nüfuzu da etibarına görə qazanırdı. Ona görə də heç vaxt unudulmadı".

Xalqının sevimli tarzəni kimi tanınan Hacı Məmmədovun musiqi sənətinin inkişafındakı xidmətləri o zaman dövlət tərəfindən də qiymətləndirilib. O, 1957-ci ildə Azərbaycan SSR-in Əməkdar artist, 1963-cü ildə isə Xalq artisti fəxri adlarına layiq görülüb.

Bir çox xarici ölkədə Azərbaycan mədəniyyətini ləyaqətlə təmsil edən, "Şərəf nişanı" ordeni ilə təltif edilmiş, 61 yaşında dünyasını dəyişən unudulmaz tarzən Hacı Məmmədov Fəxri xiyabanda torpağa tapşırılıb.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

● Yəddaş

# Bakı toponimi haqqında

**Bakı toponiminin qədimliyi haqqında ilk məlumata İ.İ.Meşşaninovun 1927-ci ildə Bakıda nəşr olunmuş "Yeqipet i Kavkaz" adlı məqaləsində rast gəlirik. O, ingilis misirşünası Flinders Petrinin irəli sürdüyü fərziyyədir. Fərziyyəyə görə, e.ə. III minilliyin sonlarına aid edilən "Ölülər kitabı" Misir mifologiyası toplusunda əksini tapmış "Bakhav" toponiminin məhz Qafqazda formalaşmasıdır. Sözün kökü olan "Baka" "Günəşin doğulduğu yer" və ya "Səhər şəfəqi" kimi yozula bilər. Bu toponim Böyük Qafqazın şərqində yerləşən Bakı ilə eyniləşdirilir.**



Bakı adına ilk dəfə V-VIII əsr mənbələrində "Baqavan" və ya "Baquan", "Atşi Baqavan" və ya "Atşi Baqvan", yəni "Atəşi Baquan" kimi təsadüf olunur. "Baqa" sözün kökündür, "van" və "an" məkan bildirir.

VIII əsr müəllifi Gevond 730-cu ildə xəzərlərin Albaniyaya basqını ilə dağıtdıqları vilayətlər sırasında "Atşi Baquanın" da adını çəkir. "Baquanın odları" kimi tərcümə olunan etnonimə görə söhbət Bakıdan gedir.

S.Aşurbəyliyə, Q.Qeybullayevə, F.İbrahimova və digər tədqiqatçılara görə Bakı yaxınlığında "baqa", "baqan" yaxud "baq" adlı tayfalar yaşamışlar. Bakı adı da buradan formalaşmışdır.

Elxanilərin, Cəlairlərin və Şirvanşahların XIV-XV əsrlərdə Bakıda kəsdirdikləri sikkələrdə də Bakı şəhəri "Bakuyə" şəklində verilir. Qaldı xalq arasında yayılmış Badi-kubə adına, əlbəttə, bu toponim xalq etimologiyasına görə formalaşmışdır. "Badı-kubə" sözü fars dilində ("bad" - külək, "kubə" - döymək, vurmaq) "külək döyən yer" deməkdir. Bu ad Bakının şimal küləklərinə (xəzri) məruz qalması ilə əlaqədar yaranmışdır.

Baki sözü ərəbcə "sonsuz", "əbədi", "qalan", "fani olmayan", "varlığı daim olan", türkcə isə "toxunulmaz" və "müqəddəs" anlamını verir. Sanskritcə "bhaqa" günəş anlamındadır. Avesta və qədim pəhləvi-iran-fars dillərində "baqa" və yaxud "baq" tanrı deməkdir. E.ə. VI əsr Bisutun mixi kitabəsində də "Baqa" sözünə rast gəlinir.

Nəhayət, belə nəticəyə gəlmək olar ki, bu ərazidə çox qədimlərdə torpaqdan çıxan qaz və neft yanıb odatəş halında göründüyü üçün adı çəkilən etnonimlər assimilyasiyaya uğramış, burada yaşayan xalq "baq", "baqa", ərazi isə "Baqavan", "Bakuyə", "Baku", "Baki" və "Bakı" kimi formalaşmışdır. Toponim "Allah şəhəri", "Allah yeri" və ya "Günəş (atəş) şəhəri", "Günəş (atəş) yeri" mənasını daşıyır. Bakı adının əbədi və müqəddəs şəhər anlamı verməsini ehtimal etmək olar.

Bakı Abşeron yarımadasında xüsusi mövqeyə malik bir ərazidə yerləşdiyindən, burada məskunlaşma qədim zamanlardan - e.ə. II-I minilliklərdə başlamışdır. Bir tərəfdən Bakı buxtası ilə qonşuluqdakı Qobustan abidələri, digər tərəfdən Abşeron yarımadasındakı türk mənşəli tayfalara məxsus Tunc, ilk Dəmir dövrü yaşayış yerləri, kurqanları, eləcə də ilk Orta əsr abidələri belə bir fikir doğurur ki, İçərişəhərdə və ətraf ərazilərdə də qədimdə - antik dövrdə yaşayış olmuşdur.

Bakının qədim mənşəli olmasını atəşpərəstlikdən öncəki arxaik dəlillər də sübut edir. Bu dəlillərdən biri, 1898-ci ildə Aleksandr Nevski kilsəsinin bünövrəsində aparılan qazıntılar zamanı, burada islamdan öncəki dövrə aid qədim qəbiristanlığın aşkarlanmasıdır. Məhəmməd məscidində 1988-ci ildə təmir işlərinin başlanması ilə əlaqədar birinci mərtəbənin aşkar olunması və onun içərisində aparılan arxeoloji qazıntılar zamanı qədim dövrə aid saxsı məmulatı, Əhəmənilər dövrünə aid sikkə vahidi, ox və cida ucluğu, həmçinin metal silah nümunələrinin tapılması böyük maraq doğurur.

Şəhərin qədim yaşayış yeri ilə bağlı arxeoloji tapıntılardan biri də 1964-cü ildə Qız qalasının yanında arxeoloji qazıntı zamanı 2,2 metr dərinlikdən tapılan və mütəxəssislər tərəfindən b.e. əvvəl I əsrə aid edilən tuncdan düzəldilmiş fantastik balıq fiqurudur. İçərişəhərdən 1989-cu ildə tikinti bərpa işləri zamanı tapılan gil qadın heykəli (b.e. əvvəl I əsr) də xalqın qədim maddi və mənəvi mədəniyyətinin öyrənilməsi baxımından böyük əhəmiyyət daşıyır.

Ölkənin sosial-iqtisadi və siyasi həyatında mühüm rol oynamaqla yanaşı, karvan yollarının qovşağında yerləşən Bakı qonşu ölkələrin şəhərləri ilə də sıx iqtisadi-ticarət əlaqələri saxlayırdı. Xəzər sahilindəki buxtada yerləşən bu qədim şəhər fırtınalı küləklərdən qorunan, yaxşı təchiz edilmiş liman tikililərinə malik idi ki, bu da şəhərin bir sıra ölkələr arasında tranzit ticarətə cəlb olunmasını təmin edirdi.

Yüksək təpə üzərində amfiteatr formasında salınan şəhər aşağıdan dənizə baxır, yuxarı hissədən isə Qafqaz dağları ilə əhatə olunmuşdur. İkiqat qala divarları, Qız qalası və digər fortifikasiya qurğuları ilə bərabər şəhər sanki bütövlükdə möhtəşəm müdafiə istehkamını xatırladırdı. Digər Orta əsr şəhərləri kimi, Qala divarı içində olan bütün binalar (Şəhristan) da taktiki və strateji baxımdan müdafiə xarakteri daşıyırdı.

Bakı özünün yeraltı və yerüstü təbii sərvətləri ilə xüsusilə şöhrət tapmışdı. Abşeron torpağının dərinliklərindən çıxarılan neft və göllərdən yığılan duz ixracın əsas hissəsini təşkil etmişdi. Bunları almaq üçün yaxın və uzaq ölkələrdən buraya ticarət karvanları gəlirmiş.

Orta əsrlərdə Bakı nefti məişətin və təsərrüfatın müxtəlif sahələrində geniş istifadə olunurdu. Neft həm evlərin işıqlandırılmasında, isidilməsində, həm də hərbi işlərdə, araba təkərlərinin yağlanmasında, dəvə və camışın müxtəlif dəri xəstəliklərindən müalicəsində və sair sahələrdə geniş tətbiq olunurdu. Abşeron nefti ilə müalicə olunmaq məqsədilə müxtəlif ölkələrdən Bakıya gəlirdilər. Bundan əlavə, şəhərin özündə və Abşeron kəndlərindəələnmiş qum və gil ilə qarışdırılmış qatı mazut (qudron) evlərin yastı damının örtülməsi üçün işlədilirdi. Abşeronun təbii sərvətləri sırasına keyfiyyətli gil də aiddir. Belə gilin yataqları Abşeron yarımadasında vardır. Məlum olduğu kimi, gil saxsı məmulatlarının istehsalı üçün də əsas xammaldır.

Xəzər dənizi suyunun səviyyəsinin tarixən artıb-azalmasıyla bağlı elmi araşdırmalar və İçərişəhərin cənub-qərb hissəsindən yeni aşkar olunmuş, qədim şəhərimizin tarixini əks etdirən maddi-mədəniyyət nümunələri Bakının yaşının təyin olunmasında əvəzsiz rol oynayır.

***Kamil İBRAHİMOV,***
***professor***

## "Bayır şəhər"



**"Bayır Şəhər" hasardan bayırda olan hissəyə deyilirdi. Vaxtilə bakılılardan hec kim "Bayır Şəhər"də ev tikib yaşamaq istəməzmiş.**

Burada yerləşənlər əsas etibarilə, ətraf kəndlərdən və başqa şəhərlərdən gələnlər idi. Buna gorə də içərişəhərlilər bayırşəhərlilərə hər zaman həqarətlə baxırdılar. Onlara "ayaqyalın bayırşəhərli" deyərdilər.

Neft gəlirlərindən zənginləşən Bakı milyonçuları XX əsrin əvvəllərində bir-birinin bəhsinə qala divarlarından kənarda gözəl binaların inşasına başladılar. Bundan sonra qədim Bakının görunuşü də dəyişdi. XIX əsrin sonlarında və XX əsrin əvvəllərində "Bayır Şəhər"də barokko, qotika, klassik, neoklassik memarlıq üslublarını əks etdirən bir cox avropasayağı gözəl bina tikildi.

● Əzim Əzimzadə-140



# Güldürə-güldürə ağladan karikaturalar

## Xalq rəssamının sənətdə açdığı cığır "gedişli-gəlişli", yumorlu gülüşü ilə hər zaman sevilir



**Azərbaycan incəsənət tarixində öz dəstxəti ilə seçilən rəssamlarımız az olmayıb. Karikaturaçılıq baxımından isə bu sənətin banisi Xalq rəssamı Əzim Əzimzadə hesab edilib. Çünki o, Azərbaycan rəssamlıq sənətində yeni bir cığır açıb. Bu gün də onun adı böyük hörmətlə çəkilir. Yeni rəssamlar nəsli isə ənənələrindən bəhrələnirlər.**

1880-ci ilin mayında Abşeronun Novxanı kəndində anadan olan Əzim atasının etirazına baxmayaraq, ibtidai təhsilini rus-tatar məktəbində alıb. Yaradıcılığı boyu əsrlərdən bəri formalaşan Təbriz, Azərbaycan miniatür və rus rəssamlıq məktəblərinin ənənələrindən çox şey öyrənib. Ölməz sənətkar rəssamlığa bütün zamanların sevimli dərgisi kimi qorunub saxlanan



satirik "Molla Nəsrəddin" jurnalında başlayıb. Beləki, 1906-cı ildən "Molla Nəsrəddin", "Baraban", "Zənbur", "Tuti", "Kəlniyyət" və s. jurnalların səhifələrində rəsmlərini çap etdirib, bununla da Azərbaycan satirik qrafikasının əsasını qoyub.

Əsərlərinin əsas mövzusunu sosial təzadlar, adətlər və xalqın məişəti təşkil edirdi. Bu əsərlərdə mənfi surətləri gah kəsərli yumor, gah da yumşaq kinayə ilə satira atəşinə tuturdu. Çəkdiyi "İt boğuşdurma", "Kişi arvadını döyür", "Varlı evində toy", "Su üstündə dava", "Köhnə bakılılar" kimi rəsmlərində müxtəlif sosial təbəqələrə məxsus tiplərin iç üzünü açan rəssam, eyni zamanda qadın hüquqsuzluğuna və ədalətsizliyə qarşı da çıxış edib.

Karikaturaçı rəssamın ailəsinə məxsus, adını əbədiləşdirən xatirə muzeyinin direktoru İradə Əzimzadə deyir ki, o, kasıb və sadə bir ailədə doğulub: "...Atası Kərbəlayı Aslan daşyonan olub. Onun dünyaya gələn 5 övladından ancaq biri - üçüncü uşağı sağ qalmışdı. Uşağa babasının adını qoymuşdular. Ancaq hamı onu Əbdüləzim deyil, sadəcə, Əzim çağırırdı. Əzimin atası Novxanıdan idi. 1887-ci ildə Bakıya köçüb gəlmişdilər. Ovaxtkı 1 May, indiki Dilarə Əliyeva küçəsində üçotaqlı, səliqəli həyət-bacası olan ev almışdılar. Atası tezliklə həmin mənzili artırıb, altı otaq düzəltmişdi.

Uşaq böyüyüb məktəb yaşına çatanda atası onu Novxanıdakı molla məktəbinə verib. O, bir ay ərzində ərəb əlifbasını və "Quran"ı oxumağı öyrənib. Elə rəssamlığa da meyli təsadüfən mollaxanada düşüb. Və hətta bunun üstündə oradan qovulub".

Ə.Əzimzadə xatirələrində yazır: "Bir gün mollam məni şəkil çəkəndə gördü. Başımın üstündən barmaqlarıma bərk çubuq vurub dedi: "Dur, xəbis, şeylərini yığışdır, buradan cəhənnəm ol!" Mən bərk xəcil olub evimizə gəldim, dəxi mollaxanaya getmədim..."

### Onun əsərləri yaşadığı cəmiyyətin güzgüsü idi

Əzim Əzimzadə rəssamlıqla yanaşı, ictimai fəaliyyətini də genişləndirir və həyatını dəfələrlə təhlükə qarşısında qoyurdu. Onu daim hədələyir, öldürmək istəyirdilər. Evləri məscidin lap yaxınlığında yerləşdiyindən Əzimzadənin əsas qəhrəmanları mollalar idi. Rəssam onların şəklini çəkir və pəncərədən ayaqlarının altına atırdı. Mollalar isə öz rəsmlərini görüncə hirslənir və kağızı cırırdılar. Hətta ömrünün son vaxtlarında, xəstə olduğu zamanlarda da o, pəncərə ağzında oturar, küçədən keçən bir "tip" görən kimi şəklini çəkərdi. Əzim Əzimzadə dinə yox, ondan sui-istifadə edən mollalara qarşı çıxırdı. O, deyirdi ki, insanlar Allahı qəlblərində sevməlidirlər.

Görkəmli rəssamın əsərləri yaşadığı cəmiyyətin güzgüsü idi. Xəsis tacirlər, fırıldaqçı din xadimləri, şarlatanlar onun satirik qələminin hədəfində olurdular.

40 illik səmərəli yaradıcılıq fəaliyyəti dövründə rəssam 3000-dən artıq karikatura, plakat, səhnə dekorasiyası və s. janrlarda əsərlər yaradıb. Onun çəkdikləri dünyanın bir sıra muzeylərində nümayiş etdirilib. Rəssamın ilk fərdi sərgisi 1940-cı ildə təşkil olunub. Bakıda keçirilən birinci sərgidə onun 1200-dən çox əsərinə baxış keçirilib. 1920-1943-cü illərdə Ə.Əzimzadə Azərbaycan Rəssamlıq Texnikumunda müəllim işləyib, 1932-1937-ci illərdə isə texnikomun direktoru olub.

Yaşadığı evdə rəssamın ev-muzeyi açılıb, evin yaxınlığındakı bağda büstü qoyulub. Bakı Rəssamlıq Texnikumu, eləcə də paytaxt küçələrindən biri onun adını daşıyır.

### Mollalıqdan "Molla Nəsrəddin"ə, "Hophopnamə"yədək

Əzim Əzimzadə Mirzə Ələkbər Sabirin "Hophopnamə"sinə çəkdiyi illüstrasiyalarla kitab qrafikası sənətinin də əsasını qoyub. Onun teatrlara çəkdiyi geyim eskizləri və dekorasiyalar isə Azərbaycan rəssamlığının bu sahədəki inkişafına xüsusi təkan verib.

Azərbaycan milli rəngkarlıq sənətinin görkəmli nümayəndəsi, mollalıqdan "Molla Nəsrəddin"ə, "Hophopnamə"yədək sənət yolu keçən Xalq rəssamı Əzim Əzimzadənin ötən ilin aprel ayında Bakı şəhərindəki xatirə muzeyinin təmirdən sonra açılışı oldu. Tədbirin açılışında xatirə muzeyinin direktoru İradə Əzimzadə bildirdi ki, görkəmli fırça ustasının vaxtilə yaşadığı ev xatirə muzeyi kimi Azərbaycan SSR Nazirlər Sovetinin 14 iyun 1965-ci il tarixli qərarı ilə yaradılıb. 1968-ci ildə fəaliyyətə başlayan bu mədəniyyət ocağı Bakıda rəssamlıq üzrə ilk ev-muzeylərindən biridir: "... Əzim Əzimzadə XIX əsrin sonu, iyirminci yüzilliyin əvvəllərində milli təfəkkürün formalaşmasında xüsusi rol oynayan "Molla Nəsrəddin" jurnalı ilə birlikdə təsviri sənətimizin inkişafında mühüm xidmətlər göstərib. O, Xalq rəssamı fəxri adına layiq görülən ilk sənətkar olub. Onun nəinki xatirə muzeyində, həmçinin Azərbaycan Dövlət Teatr Muzeyi, Milli İncəsənət Muzeyi və digər mədəniyyət ocaqlarında da qorunan irsi incəsənətimizin dəyərli sərvətləri sırasındadır. Belə şəxsiyyətlərin irsinin qorunması tariximizi, mədəniyyətimizi gələcək nəslə tanıtmaq, təbliğ etmək baxımından böyük əhəmiyyət kəsb edir".

### Əzimzadənin prototipləri İçərişəhərdə

İçərişəhərdə balaca, çox gözəl bir arxeoloji park var, burada görkəmli rəssam Əzim Əzimzadənin büstü yerləşir. Arxeoloji parkın əsas məqsədi bakılıların və şəhərimizin qonaqlarının istirahətini təmin etmək, həmçinin qədim Bakının tarixi irsini nümayiş etdirməkdir.

Parkın ərazisində Əzim Əzimzadənin büstünün qoyulması təsadüfi deyil, rəssam məhz İçərişəhərdə yaşayıb yaratmışdır. Rəssamın büstünün müəllifi Xalq rəssamı Ömər Eldarovdur. Böyük sənətkar rəssamın büstünə onun qəhrəmanlarının obrazlarını əlavə etməklə bütöv bir kompozisiya yaradıb.

Ə.Əzimzadə 1943-cü il iyunun 15-də dünyasını dəyişib. O, müharibədə döyüşən oğlunun ölüm xəbərini eşidəndən sonra bu ağır itkiyə tablaşa bilməyərək xəstələnib. Görkəmli rəssama böyük hörməti olan Azərbaycan KP MK-nın birinci katibi Mircəfər Bağırov Əzim Əzimzadənin döyüşdə olan digər oğlunun geri qaytarılması haqqında göstəriş verib ki, qoy o öz oğlunun çiynində son mənzilə getsin. Təəssüf ki, oğlu özünü can üstə olan atasına yetirə bilməyib...

***M.NƏRİMANOĞLU,***
***A.MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Sağlamlığımızı gözəlliyimizə qurban verməyək



## Xidmət sahələrində koronavirusun yayılmaması üçün metodik göstərişlərə əməl olunmalıdır

Artıq 4 gündür xüsusi karantin rejimi dövründə tətbiq edilən bir sıra məhdudiyyətlər yumşaldılaraq müxtəlif ticarət, xidmət sahələrində, ofislərdə, eləcə də bərbərxanalar, gözəllik salonları və kosmetik xidmətlər üzrə fəaliyyət bərpa olunub. Bəs koronavirus təhlükəsinin hələ sovuşmadığı, infeksiyaya yoluxma hallarının davam etdiyi müddətdə xidmətlərindən istifadəyə zərurət duyduğumuz bu sahələrdə sağlamlığımızı necə qoruyaq?



Nazirlər Kabineti yanında Operativ Qərargah xidmət sahələrində koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması, profilaktikası məqsədilə metodik göstərişlər hazırlayıb. Bu göstərişlərə əsasən, müəssisələrdə sanitar məişət otaqları (sanitar qovşaq, soyunub geyinmə otağı və s.) sanitar gigiyenik qaydalara uyğun, işlək və təmiz vəziyyətdə saxlanmalıdır. Müəssisə təmizlik vasitələri və dezinfeksiyaedici maddələrlə, əl dezinfektantları üçün nəzərdə tutulmuş dispenserlərlə, birdəfəlik istifadə üçün salfetlərlə, əməkdaşlar yetərli sayda tibbi maska və əlcəklərlə daimi olaraq təmin olunmalıdır. Xidmət sahəsi müəssisələrində çalışan işçilərin gün ərzində bir çox insanla yaxın təmasda olduğunu nəzərə alaraq, birdəfəlik istifadə edilən maska, həmçinin dezinfeksiya məhlulundan düzgün istifadə zəruridir. İstifadə edilmiş tibbi maskaların atılması üçün ayrıca qapalı torbalar qoyulmalı və bu tullantılar müvafiq qaydada məhv edilməlidir.

### Dezinfeksiya edilməsi vacib olan sahələr

Müəssisədə təmizlik-dezinfeksiya işləri iş saatı ərzində mütəmadi olaraq, əsasən işlək sahələrdə (giriş-çıxış, kassa və s.), iş saatlarından sonra isə bütün sahələrdə həyata keçirilməlidir. Dezinfeksiya işlərinin həyata keçirildiyi sahə bu işlər başa çatdıqdan sonra havalandırılmalıdır. Dezinfeksiyaedici maddələrin istifadə təlimatında qeyd edilən səth üzərində tövsiyə olunan qalma müddətinə ciddi riayət edilməlidir.

Xidmət sahələrində dezinfeksiya edilməsi vacib olan sahələr və tövsiyə edilən dezinfeksiya maddələri:

- giriş-çıxışlardakı ayaqaltlıqlar (xlor tərkibli məhlul və ya digər);
- qapı və qapı tutacaqları (spirt tərkibli məhlul və ya digər);
- istehlakçıların şəxsi əşyalarının saxlanılması üçün nəzərdə tutulan dolablar və onların tutacaqları (spirt tərkibli məhlul və ya digər);
- məhsulların saxlandığı rəflər, stellajlar, daşındığı araba və səbətlər (spirt tərkibli məhlul və ya digər);
- çoxmərtəbəli müəssisələrdəki eskalatorlar və onların tutacaqları, liftlər (spirt tərkibli məhlul və ya digər);
- döşəmələr (xlor tərkibli məhlul və ya digər);
- soyuducuların tutacaqları (spirt tərkibli məhlul və ya digər);
- soyunub-geyinmə otaqları (xlor tərkibli məhlul və ya digər);
- sanitar qovşaqlar (xlor tərkibli məhlul və ya digər);
- anbarlar (xlor tərkibli məhlul və ya digər);
- tullantıların yığıldığı sahələr (xlor tərkibli məhlul və ya digər);
- tullantı qabları (spirt tərkibli məhlul və ya digər);
- ödəniş terminalları (spirt tərkibli məhlul və ya digər);
- kassada yerləşən konveyerlər (spirt tərkibli məhlul və ya digər).

### İşçi heyətin şəxsi gigiyenası və müayinəsi

Xidmət sahəsində çalışan işçi heyəti şəxsi gigiyena qaydalarına riayət etməlidir. İşə başlamazdan, tullantılarla təmasdan, təmizlik işlərindən, sanitar qovşaqdan istifadədən, asqırma və öskürmədən, pulla təmasdan, siqaret çəkdikdən sonra işçilərin əllərini təmiz yumasına və ya dezinfeksiyasına nəzarət edilməlidir. İşçinin əllərində istənilən kəsik, açıq, qapalı yaralar mütləq su keçirməyən sarğı ilə örtülməli, bununla bağlı tibb müəssisəsinə dərhal müraciət olunmalıdır.

Xidmət sahələrində çalışan işçilərin gündəlik müayinəsinə dair tövsiyələr də medotiki göstərişlər əksini tapıb. Belə ki, iş zamanı özündə COVID-19-a spesifik olan əlamət hiss edən işçi (qızdırma, quru öskürək, nəfəs darlığı, ishal və s.) dərhal işini dayandırmalı, tibbi maska ilə təmin olunaraq qapalı otaqda izolyasiya edilməlidir. Həmin şəxsə tibbi xidmətin göstərilməsi üçün 103 TTTY-ə müraciət edilməlidir:

- xəstəlik əlaməti olan işçinin iş yeri dezinfeksiya edilməlidir;
- həmin işçidə laborator üsul ilə COVID-19 təsdiqləndiyi halda, onunla sıx təmasda olan əməkdaşlardan test götürülməli və cavabları aşkarlanana qədər onlar evdə izolyasiya olunmalıdırlar.

### Tibbi maskalardan ümumi istifadə qaydaları

Qapalı məkanlarda tibbi maskadan istifadəsi mütləq şərtdir. Maskalar ağız və burun nahiyəsini səliqəli örtməklə, üz və maska arasındakı boşluqları minimuma endirmək şərti ilə taxılmalıdır. Maska çıxarılan zaman müvafiq texnikaya əməl edilməlidir (maskanın ön hissəsinə toxunmaq olmaz, arxa hissəsindəki ipləri vasitəsilə çıxarılmalıdır). Maskanı çıxardıqdan sonra əllər spirtlə təmizlənməli, yaxud sabun və su ilə təmiz yuyulmalıdır. Maska çirkləndikdə və ya nəmləndikdə dəyişdirilməsi vacibdir. Birdəfəlik maskalardan təkrar istifadə etmək olmaz. Birdəfəlik maskaların istifadəsindən sonra onların zərərsizləşdirilməsi və kənarlaşdırılması zəruridir.

### Əllərin gigiyenasına dair tövsiyələr

- Əllər axar su ilə isladılmalı və sabun ilə sürtülməlidir;
- əllər sabunla birlikdə ovuşdurulmalıdır. Barmaqların və dırnaqların arası yaxşı sabunlanmalıdır;
- sabunlu əllər ən azı 20 saniyə ovuşdurulmalıdır;
- əllər axar suyun altında mükəmməl durulanmalıdır;
- əllər təmiz salfetlərlə qurulanmalıdır;
- sabun və ya su istifadəsi mümkün olmadıqda, etanol (spirt) tərkibli dezinfeksiyaedici məhlullardan istifadə edilməlidir.

Metodik göstərişlərdə qeyd olunub ki, geyim satışı obyektlərində dəyişmə otaqlarından, kosmetika və ətriyyat satışı dükanlarında isə nümunə üçün ayrılmış kosmetik vasitələrin istifadəsi qadağandır. Qızıl, digər bəzək əşyalarının satışı və lombard fəaliyyəti müəssisələrində, eləcə də mobil cihazların, ehtiyat hissələrinin və aksessuarlarının satışı və təmiri mərkəzlərində müştəri tərəfdən əşyaya toxunmazdan əvvəl və sonra əllər dezinfeksiya olunmalıdır.

### Bərbər və gözəllik salonları bu qaydalara riayət etməlidirlər

Əhali tərəfindən fəaliyyətə başlaması səbirsizliklə gözlənilən sahələrindən biri də bərbər və gözəllik salonlarıdır. Bu sahələrdən istifadə sıx olduğu üçün həm orda çalışan işçilər, həm də vətəndaşlar aşağıdakı metodik göstərişləri mütləq bilməlidirlər:

- onlayn növbə qəbul sisteminin tətbiqi;
- əllərin yuyulması: iş proseslərindən əvvəl və sonra əllər mütləq yuyulmalıdır;
- iş önlüyü: bərbərlər və onlarla birgə çalışan şəxslər müvafiq formalar geyinməlidir;
- müştəri önlüyü: xidmət zamanı hər müştəri üçün ayrı önlük istifadə olunmalıdır;
- əməkdaşların və müştərilərin tibbi maskadan istifadəsi məcburidir;
- kosmetoloji xidmətlər zamanı xidmət göstərənin sipərik, tibbi maska və əlcəkdən istifadəsi məcburidir;
- dəsmalların istifadəsi: hər bir müştəri üçün ayrı dəsmallar istifadə olunmalıdır;
- qayçı, ülgüc, təraş maşınlarının başlıqları və istifadə edilən digər alətlər mütləq dezinfeksiya edilməlidir;
- ülgüc, epilyasiya iynə ucları kimi deşici və kəsici alətlər tibbi tullantı qutusuna atılmalı və tibbi tullantı kimi ləğv edilməlidir;
- qayçılar və ülgüc başlıqları yuyulduqdan sonra spirtlə təmizlənməlidir.

Sadalanan tövsiyələrə riayət etmək hər kəsin sağlamlığı naminə mütləq və zəruridir. Vətəndaş özü də bu baxımdan diqqətli və məsuliyyətli olmalıdır. Yaxşı olar ki, özünüzün ayrıca kosmetik alətləriniz, qayçı, daraq, ülgüc və təraş maşınınız olsun. Əgər yoxdursa, usta tərəfindən yuxarıda sadalanan təlimatlara əməl olunmasına diqqət yetirin. Hər hansı xidmət sahəsində bu qaydaların tətbiqinə dair laqeydlik gördükdə onlara riayət olunmasını tələb edin. Bu, sizin haqqınızdır. Ən əsası isə sağlamlığınızı qorumaq üçün vacibdir. Deyirlər, gözəllik qurban tələb edir. Çalışın, sağlamlığınızı gözəlliyinizə qurban verməyəsiniz.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# "Ukraynadan gətirilən vətəndaşlarımızın hamısı müayinədən keçirilib və karantin rejiminə alınıb"

Məlum olduğu kimi, mövcud qlobal COVID-19 pandemiyası çərçivəsində Azərbaycanın xarici ölkələrdə olan və vətənə geri qayıtmaq istəyən vətəndaşlarının təxliyəsi davam etdirilir. Mayın 14-də AZAL-ın Kiyev-Bakı çarter reysi ilə 197 vətəndaşımız ölkəyə geri dönüb. Vurğulamaq istərdim ki, geri qayıdan vətəndaşlarımızın hamısı müvafiq müayinədən keçirilib, karantin rejiminə alınıb. Bu sözləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bildirib.

Leyla Abdullayeva deyib: "Təəssüflə bildirmək istərdik ki, müayinə nəticəsində vətəndaşlarımızdan 29-nun COVID-19 testi müsbət çıxıb. Hazırda həmin vətəndaşlarla əlaqədar zəruri tibbi tədbirlər görülür və təbii ki, onların təmaslarının da karantin rejimində nəzarəti və müayinəsi həyata keçirilir.

Bu, Ümumdünya Səhiyyə Təşkilatının da ciddi tövsiyələrinə uyğun olaraq, özünütəcrid qaydalarına əməl etməyin və səfərlərdən mümkün qədər çəkinməyin vacibliyini bir daha göstərir. Biz vətəndaşlarımıza olduqları ölkələrdə karantin qaydalarına ciddi əməl edilməsinin və səfərlərdən çəkinmələrinin həm özlərinin və yaxınlarının sağlamlığının qorunması, həm də ölkəmizdə infeksiyanın geniş yayılmasının qarşısının alınması baxımından zəruriliyini dəfələrlə bildirmişik.

Bir daha vətəndaşlarımıza səslənərək, öz sağlamlıqlarının, eləcə də Azərbaycan xalqının sağlamlığının təmin edilməsi naminə mövcud müvəqqəti çətinlik şəraitində anlayış nümayiş etdirmələrini, mümkün qədər olduqları yerlərdə qalmalarını və səfərlərdən çəkinmələrini xahiş edirik".

# FHN-in 112 - qaynar telefon xəttinə psixoloji yardımla bağlı 800-ə yaxın zəng daxil olub

Məlumat verildiyi kimi, ölkəmizdə mövcud karantin rejimində psixoloji problemlər yaşayan vətəndaşlarımıza dəstək olmaq məqsədilə cari il aprelin 8-dən etibarən Fövqəladə Hallar Nazirliyinin (FHN) 112 - qaynar telefon xətti vasitəsilə nazirliyin psixoloqları tərəfindən təcili psixoloji yardımın göstərilməsi təşkil olunub.

FHN-in Mətbuat xidmətinin rəhbəri Gülçin Mehdiyeva AZƏRTAC-ın sorğusuna cavab olaraq bildirib ki, 24 saat fasiləsiz fəaliyyət göstərən telefon xəttində nazirliyin xüsusi hazırlıqlı psixoloqları işləyirlər. Fəaliyyət göstərdiyi gündən bu günədək psixoloji yardımla bağlı qaynar xəttə 800-ə yaxın müraciət daxil olub. Müraciətlər əsasən, COVID-19 infeksiyasına yoluxma qorxusu yaşayan, yaşlı valideynlərinə görə narahatçılıq, gərginlik keçirən, təşviş içərisində olan insanlardan daxil olub. Müraciət edənlər arasında iş həyatına alışan və hazırda gündəlik rejimini düzgün, səmərəli bölüşdürməkdə çətinlik çəkən insanlar da az deyil.

Qeyd edək ki, psixoloji yardımın təşkilində məqsəd çətin vəziyyətdə olan insanların yanında olmaq, onları psixoloji problemləri ilə tək qoymamaq, həmin şəxslərə mənəvi dəstək göstərmək, karantin rejiminə uyğunlaşmalarına kömək etməkdən ibarətdir.

Zəng edən şəxslər göstərilən yardıma görə təşəkkürlərini bildirirlər.

18 may Beynəlxalq Muzeylər günüdür

# Milli-mənəvi, maddi-mədəni sərvətimizin saxlanc yeri

## Bu il AMEA Milli Azərbaycan Tarixi Muzeyinin 100 yaşı tamam olur

Ölkəmizin maddi-mədəniyyət, eləcə də mənəvi sərvətləri kifayət qədərdir. Məhz onların qorunub saxlanması üçün bu gün 250-dən çox dövlət və şəxsi muzey fəaliyyət göstərir. Milli Azərbaycan Tarixi Muzeyi, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Milli Xalça Muzeyi, Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi və Azərbaycan İstiqlal Muzeyi respublikanın ən iri muzeyləri sırasına daxildir.











İlk Tarix muzeyi Bakıda 1920-ci ildə, ilk Memorial muzey isə Şəkidə 1938-ci ildə yaradılıb. Paytaxt Bakıda, məşhur Bakı milyonçusu, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin mülkündə yerləşən, bu il fəaliyyətə başlamasından yüz il ötən AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyi haqqında ayrıca söz açmağımız isə təsadüfi deyil.

Bu muzey Azərbaycan tarixinin bütün dövrlərinə aid maddi və mənəvi mədəniyyət abidələrinin toplanması, öyrənilməsi, nümayişi, təbliği ilə məşğul olan elmi-tədqiqat və mədəni-maarif müəssisəsidir. Muzey 1920-ci ilin iyulundan məşhur neft sahibkarı və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin polşalı İosif Qoslavskinin layihəsinə əsasən tikdirdiyi sarayda fəaliyyət göstərir.

"Sərvəti və səxavətilə məşhur olmuş Hacı Zeynalabdin Tağıyevin tərcümeyi-əhvalı" kitabından oxuyuruq ki, Tağıyev sarayının inşasında 270 nəfər mühəndis, memar, dülgər, nəqqaş və başqa ustalar çalışıb. Binanın daxilindəki bütün avadanlıq Rusiya, Fransa, Amerika və Almaniyadan gətirilib. Burada hələ ovaxtlar isidici və soyuducu sistemlər quraşdırılıb. İmarət üç mərtəbədən ibarət olub. Otaqların hər birinin hündürlüyü 13 metrə çatırdı. Tavanın naxışlarına ustalar tərəfindən 40 min rubladək qızıldan istifadə edilmişdir. Sarayın sütunları almaz və rəngli güzgülü şüşələrlə bəzədilmiş, döşəməsi isə Rusiyadan alınmış təbii rəngli ağcaqayın taxtalardan qurulmuşdu. Mebel Amerikadan, şəkillər və zərbəft pərdələr isə Almaniyadan gətirilmişdi. Kitabda deyilir ki, təkcə binanın tikintisinə (xaricdən gətirilən mebel və avadanlıq nəzərə alınmasa) 1,2 milyon rubl vəsait xərclənmişdi...

XX əsrin 20-ci illərindən Azərbaycan Tarixi Muzeyi ölkə ərazisində arxeoloji kəşfiyyat və qazıntı işlərinə başlamışdır. Görkəmli Azərbaycan arxeoloqlarının əməyi sayəsində hazırda 80 mindən artıq materialın toplandığı muzeyin Arxeologiya fondunda Daş, Mis-daş, Tunc, İlk Dəmir, Antik dövrləri və orta əsrlər dövrünü xarakterizə edən maddi mədəniyyət nümunələri var. Yeri gəlmişkən, burada saxlanan ən nəfis, orijinal və nadir eksponatların böyük bir qismi də Etnoqrafiya elmi fondunda mühafizə olunur. Bu gün fondda mühafizə edilən eksponatların ümumi sayı 9 minə yaxındır. Etnoqrafiya fondunda qorunan eksponatlar içərisində Azərbaycanın maddi mədəniyyətinin mühüm göstəricilərindən olan geyimlərin və tikmələrin özünəməxsus yeri var. Azərbaycan xalqının zəngin mənəvi mədəniyyətə sahib olduğunu sübut edən musiqi alətləri də Etnoqrafiya fondunda yer alıb. Burada mühafizə edilən, XII-XVI əsrlərdə istifadə olunan çoğur Azərbaycanın ən nadir musiqi alətlərindən biridir.

Muzeyə virtual səyahətdə öyrənirsən ki, Etnoqrafiya fondunda Azərbaycanın tanınmış alim, şair, bəstəkar, aktyor, hərbçilərinə məxsus əşyalar da saxlanılır. Bununla yanaşı, fondda Moldova, Türkmənistan, Rusiya, İran və s. ölkə nümayəndələrinin Azərbaycana səfərləri zamanı muzeyə bağışladıqları qiymətli hədiyyələr də qorunur.

Hədiyyələr və xatirə əşyaları fondu da çox zəngindir. Bu fondun əsası 1955-ci ildə qoyulub. 1992-ci ilədək Sovet dövrü, 1992-ci ildən isə Ən yeni tarix fondları əsasında 2009-cu ildə təşkil olunub. Hazırda burada 5300-dən artıq eksponat var. Təqribən 1000 ədəd eksponat respublikaya və bilavasitə Milli Azərbaycan Tarixi Muzeyinə xarici ölkələrin nümayəndələri tərəfindən verilmiş hədiyyələrdir. Fondun kolleksiyasına neft sahibkarı, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin, eləcə də Hüseyn Cavid, Səməd Vurğun, Rəsul Rza, Mirəsədulla Mirqasımov, Yusif Məmmədəliyev, İsrafil Məmmədov, Həzi Aslanov, Mehdi Hüseynzadə, Ziya Bünyadov və s. bu kimi tanınmış ədəbi və elmi simalara məxsus xatirə əşyaları daxildir.

1957-ci ildə muzeydə Qiymətli metallar fondu da təşkil olunub. 2009-cu ildən Xüsusi fond adlandırılan bu bölmədə 1570 eksponat saxlanılır ki, onlardan 556 ədədi gümüş, 300-ü qızıl, 714-ü isə numizmatik kolleksiyaya aiddir. Muzeyin ən qədim və qiymətli eksponatlarından biri olan Azıxantropun çənəsi də məhz bu fonddadır. Şəkinin Küdürlü kəndində tapılan qızıldan qadın bəzəkləri də fondun ən qədim zinət əşyalarından hesab olunur.

Bu gün muzeyin müxtəlif fondlarında tariximizi yaşadan 300 minədək maddi-mədəniyyət nümunəsi qorunur. Muzeyin kitabxanasında əsasən XIX-XX əsrin əvvəllərində çap olunmuş 80 mindən artıq nadir jurnal, kitab və qəzetlər toplanıb.

2004-2007-ci illərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və dəstəyi ilə muzeyin binası əvvəlki görkəmini saxlamaqla müasir tələblər səviyyəsində bərpa və təmir olunub. Muzeyin 10 otağında Azərbaycan xalqının görkəmli oğlu Hacı Zeynalabdin Tağıyevin ev-muzeyi də fəaliyyət göstərir. Vətəninə və xalqına hədsiz xidmətlər göstərmiş "el atası"nın xatirəsi burada özünəlayiq şəkildə əbədiləşdirilib, məşhur mesenatın örnək həyat və fəaliyyəti işıqlandırılıb.

Muzeydə Elmi ekspozisiya və sərgilərin təşkili, Elmi-kütləvi iş və təhsil, Elmi maarifləndirmə və ekskursiyalar, Beynəlxalq əlaqələr, Arxeologiya, Etnoqrafiya, Numizmatika və epiqrafika elmi-fond şöbələri, Bərpa laboratoriyası, kitabxana və digər fondlar da fəaliyyət göstərir.

2020-ci ildə Milli Azərbaycan Tarixi Muzeyinin 100 illiyi tamam olur. Bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin 100 illik yubileyinin qeyd edilməsi haqqında" 4 dekabr 2019-cu il tarixli sərəncam imzalayıb.

Ötən il əsaslı təmirə dayanan muzey öz ziyarətçilərindən hələ ki, uzaq düşüb. Lakin muzeydə bu müddət ərzində də muxtəlif tədbirlər, sərgilər, konfranslar təşkil olunub. Xatırladaq ki, muzeyin ekspozisiyasının yenilənməsi və fondların əlavə materiallarla zənginləşdirilməsi üçün xeyli işlər həyata keçirilib. Naxçıvan ərazisində tapılmış, maddi-mədəni əhəmiyyət kəsb edən bəzi arxeoloji sərvət daimi mühafizə üçün muzeyin Arxeologiya fonduna təhvil verilib. Həmin materiallar saxsı qablardan və onların fraqmentlərindən ibarət olub, Naxçıvan Muxtar Respublikasının I Kültəpə, Ovçular təpəsi, Duzdağ, Naxçıvantəpə və Oğlanqala abidələrindən tapılıb. Onların arasında bir ədəd mixi yazılı qab fraqmenti də var. Tapıntıların dövrü e.ə.VI-I minilliklərə aiddir. Haqqında bəhs edilən bu tapıntılar bölgənin, ümumilikdə isə Azərbaycanın qədim tarixinə və zəngin mədəniyyətinə aid qiymətli əşyayi-dəlillərdir.

Muzeyin şöbə müdiri Fəridə Şəmsinin təbirincə desək, dünyanı öz çənginə alan koronavirus pandemiyası bütünlüklə xidmət sahələrini, o cümlədən də mədəniyyət müəssisələrini müvəqqəti də olsa, tamaşaçı üzünə həsrət qoyub: "Karantinlə bağlı Milli Azərbaycan Tarixi Muzeyi öz fəaliyyətini onlayn şəkildə davam etdirir. Muzeyin fond materialları, kataloqları və digər nəşrlərinin təbliği ilə bağlı işlər davamlı şəkildə icra olunur. İzləyicilərimizə onlayn tədbirlər, tarixi günlər haqqında məlumatlar verilir. Xüsusilə qeyd etmək lazımdır ki, Rusiya Federasiyasının "TurStat" turizm portalı tərəfindən tərtib olunmuş reytinqə əsasən Milli Azərbaycan Tarixi Muzeyi MDB-nin 10 ən yaxşı tarix və mədəniyyət muzeyləri sırasında 6-cı yeri tutur".

Aprelin 7-də muzeyin direktoru, akademik Nailə Vəlixanlı ölkədəki durumla bağlı Azərbaycan xalqına müraciət edib: "Biz inanırıq ki, dünya bu ağır imtahandan da çıxacaq, biz əvvəlki gündəlik qayğılarımıza, iş yerlərimizə qayıdacağıq. Lakin bu gün şəraitə uyğun hərəkət etməli, evdə qalsaq da, işlərimizi görməli, bir-birimizin qayğısına qalmalı, vətən, dövlət və gələcək naminə yaşamalı və çalışmalıyıq..."

Onlayn şəkildə işləyən muzey əməkdaşları bu qocaman tarixi mədəniyyət ocağının 100 illik yubileyinə ciddi şəkildə hazırlaşırlar. Bu ilin payızında, daha doğrusu, 21 oktyabr 2020-ci il tarixdə burada "Muzey XXI əsrdə. Klassikliklə interaktivliyin nisbəti problemləri" mövzusunda beynəlxalq elmi-konfrans keçiriləcək. Bundan əlavə, yubileylə əlaqədar silsilə tədbirlər çərçivəsində sərgilərin və yeni ekspozisiyanın açılışı da planlaşdırılır.

***Məhəmməd NƏRİMANOĞLU,***
***Ağəəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# İƏT-in Milli Xəbər Agentlikləri Birliyi (UNA) koronavirusa qarşı mübarizə mövzusunda virtual forum keçirib

## Forumda qəbul edilən birgə bəyanatda UNA-nın fəaliyyətinə Azərbaycanın dəstəyi xüsusi vurğulanıb

Mayın 16-da İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Milli Xəbər Agentlikləri Birliyi (UNA) "Koronavirusa qarşı səylərin dəstəklənməsində xəbər agentliklərinin rolu" mövzusunda ilk virtual forum keçirib. Əlliyə yaxın ölkənin rəsmi xəbər agentlikləri rəhbərlərinin, səfirlərin iştirak etdikləri forumda Azərbaycanı UNA-nın İcraiyyə Şurasının üzvü, AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov təmsil edib.

Səudiyyə Ərəbistanı Krallığının İnformasiya naziri, UNA-nın İcraiyyə Şurasının sədri Məcid bin Abdullah əl-Qasbinin sədrliyi ilə keçən müzakirələrdə İƏT-in baş katibi Yusif bin Əhməd əl-Useymin, İslam İnkişaf Bankının prezidenti Bəndər bin Məhəmməd Həccar, ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik, İslam Radioyayım Birliyinin baş direktoru Məhəmməd Salimvaləd Buk, UNA-nın baş direktorunun müavini Zayid Sultan Abdullah, Küveytin Kuna agentliyinin prezidenti Şeyx Mübarək İbrahim əl-Sabah, Birləşmiş Ərəb Əmirliklərinin WAM agentliyinin baş direktoru Məhəmməd Cəlal əl-Raysi və başqaları iştirak ediblər.

Pandemiya dövründə informasiyaya tələbatın artması barədə danışan nazir Məcid bin Abdullah əl-Qasbi deyib: "Mövcud vəziyyət media qurumlarını fəallaşdırıb. Lakin çox sayda müxtəlif KİV-in olmasına baxmayaraq, rəsmi xəbər agentlikləri bu dövrdə də doğru-dürüst informasiyanın mənbəyi olaraq qalır. UNA İslam ölkələri arasında həmrəyliyin gücləndirilməsinə daim töhfə verib. Hazırkı mürəkkəb şəraitdə təşkilat milli xəbər agentlikləri ilə sıx təmasda çalışır, ölkələrimizdə baş verənlərlə bağlı dünyanı məlumatlandırmaqda davam edir".

Forumda çıxış edən AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov koronavirus pandemiyasının mətbuatın məsuliyyətini ikiqat artırdığını, cəmiyyətin real vəziyyətlə bağlı doğru-düzgün məlumatlandırılmasında xəbər agentliklərinin aparıcı yer tutduğunu deyib. "Məhz bizim qurumlar hökumətlərin böhranla mübarizə strategiyasına informasiya dəstəyi göstərir, virusun fəsadlarından daha təhlükəli olan dezinformasiyanın qarşısının alınmasında iştirak edir. Ona görə də agentliklərdə feyk xəbərlərlə mübarizə virusla mübarizə işinin tərkib hissəsinə çevrilməlidir. AZƏRTAC feyk xəbərlərlə mübarizə ilə yanaşı, zəruri olan maarifləndirmə işini də yerinə yetirir, virusla bağlı məlumatlandırıcı materiallar yayır", - deyə o bildirib.

Azərbaycanda koronavirusa qarşı mübarizədən bəhs edən Aslan Aslanov vurğulayıb ki, Prezident İlham Əliyevin müdrik rəhbərliyi sayəsində ölkəmizdə pandemiyanın yayılmasına qarşı səmərəli mübarizə aparılır, insanları və biznesi dəstəkləmək üçün sosial və iqtisadi proqramlar reallaşdırılır: "Azərbaycan Prezidentinin koronavirusla mübarizəyə strateji baxışının, birinci xanım Mehriban Əliyevanın davamlı dəstəyinin nəticəsi olan nümunəvi təcrübə və COVID-19-a qarşı mübarizənin Azərbaycan modeli bir sıra ölkələrdə maraqla qarşılanıb. Təsadüfi deyil ki, AZƏRTAC-ın bu mövzuda hazırladığı "Böyük çağırış və liderin xilaskarlıq missiyası" sərlövhəli analitik material 23 ölkənin 45 veb-resursunda, o cümlədən UNA-nın saytında dərc edilib. Bu, əməkdaşlığımızın ən gözəl nümunələrindən biri hesab oluna bilər. Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkatının Zirvə görüşlərinin UNA-nın üzvü olan agentliklər tərəfindən geniş işıqlandırılması da pandemiya ilə mübarizədə ümumi informasiya fəaliyyətimizin daha bir diqqətçəkən epizodudur".

Forumda çıxış edənlər vurğulayıblar ki, pandemiya informasiya təminatında xəbər agentliklərinin cəmiyyətdə rolunun necə əhəmiyyətli olduğunu bir daha göstərdi. Feyk xəbərlərin qarşısının alınması, insanların virusla bağlı maarifləndirilməsi və mütəmadi məlumatlandırılması onların gündəlik fəaliyyətinin əsas hissəsinə çevrilib. Bu dönəmdə agentliklərin əməkdaşlığına, birgə səylərə daha çox ehtiyac duyulur. UNA-nın bu forumunun üzv agentliklər arasında informasiya mübadiləsini intensivləşdirəcəyinə əminlik bildirilib, tədbirin təşkilinə verdiyi dəstəyə görə AZƏRTAC-a minnətdarlıq ifadə olunub.

Sonda forum iştirakçıları birgə bəyanat qəbul ediblər. Sənəddə bildirilir ki, xəbər agentlikləri bundan sonra da insanları məlumatlandırmağı və maarifləndirməyi davam etdirəcəklər. Agentliklər bu istiqamətdə kontent müxtəlifliyini genişləndirməklə cəmiyyətə daha dolğun informasiya çatdıra bilərlər. Bununla əlaqədar UNA agentliklərə peşəkar bacarıqların inkişaf etdirilməsi üçün proqramlar təklif edir.

Bəyanatda İslam Əməkdaşlıq Təşkilatının Milli Xəbər Agentlikləri Birliyinin fəaliyyətinə Azərbaycanın dəstəyi xüsusi vurğulanıb.

# Azərbaycan XİN Paşinyanın mətbuat konfransında söylədiyi fikrə münasibət bildirib

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistan baş nazirinin onlayn mətbuat konfransı zamanı "məxməri inqilabdan" sonra Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə yeni sənədin irəli sürülmədiyi, köhnə təklifin isə məqbul olmadığı fikrinə münasibət bildirib.

AZƏRTAC xəbər verir ki, Leyla Abdullayeva Ermənistan baş nazirinin münaqişənin həlli üzrə aparılan danışıqlar prosesi barədə bu cür fikirlər səsləndirməsinin ya onun son iki il ərzində hələ də bu prosesi öyrənə bilmədiyini, ya da bu kimi bəyanatları ilə danışıqlar prosesinə əngəl törətmək məqsədi güddüyünü göstərdiyini bildirib. Doğrudur, danışıqlar prosesində yeni sənəd yoxdur, çünki yeni sənədə və təklifə heç ehtiyac da yoxdur. Belə ki, danışıqlar ATƏT-in Minsk qrupunun 2019-cu ilin 9 mart tarixli bəyanatında da açıqlandığı kimi, danışıqlar masasında artıq mövcud olan sənəd üzrə aparılır. Maraqlıdır, N.Paşinyan son iki il ərzində Ermənistan xarici işlər nazirinin aparılan danışıqlar prosesində nə işlə məşğul olduğu ilə heç maraqlanıbmı? Bəlkə də bu ilin yanvar ayında Cenevrədə intensiv şəkildə aparılan danışıqlar da daxil olmaqla, həmsədrlər tərəfindən Azərbaycan və Ermənistan xarici işlər nazirlərinə təqdim olunan sənədləri Ermənistan xarici işlər nazirinin öz baş nazirinə təqdim etmədiyi istisna olunmamalıdır. Əgər Ermənistanın hazırkı rəhbərliyinin məqsədi "danışıqlar" pərdəsi altında münaqişənin həllini uzatmaqdırsa, bu yanaşma həm Azərbaycan, həm də beynəlxalq ictimaiyyət tərəfindən qətiyyətlə rədd olunur. Danışıqlar prosesini və beynəlxalq vasitəçilərin səylərini heçə endirmək istəyən işğalçı Ermənistan rəhbərliyinə xatırladırıq ki, ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçılarının səyləri də daxil olmaqla, bu ölkələrin vasitəçiliyi ilə uzun illər ərzində Azərbaycan və Ermənistan arasında aparılan danışıqların başlıca məqsədi BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə uyğun olaraq, işğalçı qüvvələrin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən çıxarılması, yüz minlərlə məcburi köçkünün insan hüquqlarının bərpa olunması və beləliklə də, bölgədə davamlı sülhün və təhlükəsizliyin təmin edilməsidir.

Ermənistan rəhbərliyi bu kimi bəyanatları ilə aydın şəkildə göstərir ki, hansı ölkə bölgədə sülhün, hansı ölkə isə gərginliyin artırılmasının tərəfdarıdır. Bir daha vurğulayırıq ki, bölgədə vəziyyətin gərginləşməsinin bütün məsuliyyəti tamamilə Ermənistanın üzərindədir.

# Paşinyan Ermənistanı sürətlə iflasa aparır

## Sosial-iqtisadi sahədə yaranan problemlər bu ölkədə əhalinin narazılığını daha da artırıb

***Əvvəli 1-ci səh.***

Eyni zamanda İtaliyaya etdiyi səfərin nəticələrindən sonra Paşinyan iki şeyə nail oldu: inanılmaz məbləğlər mənasız yerə xərcləndi və o, Mikael Minasyanın Vatikanın zirzəmilərində gizləndiyini söyləməklə İtaliya Senatının sədri ilə mübahisəyə girdi".

Minasyan deyib ki, hazırda Ermənistanda iki qrup yaranıb: əvvəllər o qədər də yaxşı yaşamayan və indi hakimiyyətdə olan, xalqın hesabına cah-cəlal içərisində yaşayan insanlar və xalqın özü, hansı ki, əvvəllər pis yaşayırdı və indi daha pis yaşayır. Onun sözlərinə görə, Paşinyan tezliklə baş nazir postunu itirəcəyini başa düşür və mümkün qədər çox sərvət toplamağa çalışır.

Erməni mediası da yazır ki, Paşinyan yeni baş nazir seçildiyi zaman hər kəsə sehrli bir çubuq olduğunu və bütün problemləri çox tez həll edəcəyinə əmin edirdi. Ancaq həyat göstərdi ki, bu aldatmadır. Daha sonra Paşinyan insanları manipulyasiya etmək üçün təkrarolunmaz bacarığından dəfələrlə istifadə edərək, hakimiyyətin misli görünməmiş müvəffəqiyyəti haqqında "faktlar" səsləndirməyə başladı. Bəziləri inanırdı, bu gün yenə də inanırlar, bəziləri inanmırdı və hələ də inanmırlar. Yeri gəlmişkən, ikinci qrupa daxil olanların sayı getdikcə artır. İnsanlar bu görünməmiş nailiyyətlərdən, yüksək iqtisadi artımdan, inanılmaz uğurlardan sonra da həyatlarında heç nə dəyişmədiyini görürlər.

"168.am" nəşri yazır ki, Paşinyan baş nazir seçiləndə Ermənistanı investisiya cənnətinə çevirəcəyinə söz verirdi, amma tezliklə bunun heç bir əsası olmadığı məlum oldu: "Əksinə, hakimiyyət investisiya qoyulmaması üçün hər şeyi etdi və etməkdə davam edir. İki ilin nəticələri də göz qabağındadır. Ermənistan iqtisadiyyatı xarici kapitalı cəlb etmir, onun marağını kəsb etmir. Birbaşa investisiyalar artmır. Daha da artıq hakimiyyətin yüngül əli ilə kapital ölkəni tərk edir. Sonra iqtisadi sıçrayış və iqtisadi inqilab dövrü gəlməli idi. Lakin xaricdən investisiya qoyulmadığı üçün bankların verdikləri kreditlərin iqtisadi inqilabın hərəkətverici qüvvəsinə çevrilməli olduğu bildirildi. İqtisadiyyatı kreditlərlə, xüsusən də yüksək kreditlərlə inkişaf etdirməyin çətin olduğu yenilik deyil. Bu, tez bir zamanda özünü büruzə verdi. Düzdür, hökumət dəyişikliyindən sonra bankların kredit portfeli kifayət qədər yüksək sürətlə böyüməyə başladı, lakin sonra məlum oldu ki, hətta kredit kapitalı da iqtisadiyyatın real sektoruna girməyə hazır deyil".

Bildirilir ki, kredit portfelinin artımı, əsasən, istehlak-ipoteka kreditləri hesabına baş verir. Bunlar o qədər ağırlaşdılar ki, bank sistemi üçün təhlükə yaratmağa başladılar. Sonra Mərkəzi bank etiraf etməli oldu ki, əhaliyə verilən kredit yükü gəlirlərindən daha sürətli artaraq yük olub. Buna görə də məhdudiyyətlər qoymağın vaxtı çatıb. Bir çoxları gəlirlərinə bu neçə min dramın əlavə edilməsini belə hiss etmirdilər. Bunun əvəzinə hakim elita bu şəraitdə özünü tam mükafatlarla əhatə edirdi. Bir gün Paşinyanın xalqdan gizli büdcə hesabına yüksəkvəzifəli məmurlara mükafat payladıqları, maaşlarını bir neçə yüz min drama qədər artırdıqları bəlli olmasaydı, bu açıqlanmayacaqdı.

Qeyd olunur ki, bu mükafatlandırma bir çoxlarının yaşamaq uğrunda ölüm-dirim savaşı apardığı bir vaxtda baş verir. Sonra böyük depressiya dövrü gəldi, daha yaxşı bir həyat ümidlərini hələ itirməmiş insanları sarsıdan epidemiya başladı. İqtisadiyyat böhran içindədir. Bu böhrandan çıxma perspektivləri hələ olduqca qeyri-müəyyəndir. Bu il iqtisadiyyatda artım olacağına heç bir ümid yoxdur. Dövlət büdcəsi qeyri-düzgün işləmə riski ilə üzləşir. Hökumət büdcə öhdəliklərini yerinə yetirmək üçün xaricdən əlavə pul borc almalı olur. Həmişə kreditlərə qarşı olan Paşinyan üçün dövlət borcu yükünün onunla ağırlaşması artıq mümkün deyil.

Xalq inqilab edərək "xalqın baş nazirini" hakimiyyətə gətirərkən, yaxşı yaşamaq üçün iki il sonra acı reallıqla üzləşməli oldu. Bu gün ölkədəki sosial vəziyyət hakimiyyət dəyişikliyindən əvvəlki vəziyyətdən daha gərgindir. Bir çox insan gündəlik çörək problemini həll etmək faktı ilə üzləşib. Minlərlə vətəndaş işini itirib və onların sayı artmaqda davam edir.

Vurğulanır ki, işsizliyin artacağı ilə yanaşı, yoxsulluğun artması da gözlənilir. Bütün bunlar insanların həyat və yaşayış şəraitini ciddi şəkildə yaxşılaşdıracaqlarına, maaşların artırılmasına və iş yerlərinin açılmasına, işsizliyin və yoxsulluğun azaldılmasına söz verən həmin "inqilab"dan 2 il sonra baş verir.

Hesab edilir ki, bu gedişlə Ermənistan Paşinyan dönəmində daha sürətlə məhvə doğru gedəcək.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# "Azercell"in bölgələrdə yaşayan ailələrə dəstəyi davam edir

## Sosial təcrid şəraitində yaşayan həssas kateqoriyalardan olan daha 1000 ailəyə ərzaq məhsullarından ibarət sovqat paylanıb

"Azercell Telekom" MMC koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar karantin dövründə xüsusi diqqət və qayğıya ehtiyacı olan insanlara, aztəminatlı ailələrə dəstəyini davam etdirir. Ötən iki həftədə olduğu kimi, müqəddəs Ramazan ayının üçüncü həftəsində də bölgələrdə sosial təcrid şəraitində yaşayan həssas kateqoriyalardan olan daha 1000 ailəyə ərzaq məhsullarından ibarət sovqat paylanıb.




"Azercell" xeyriyyə layihəsi çərçivəsində Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təqdim etdiyi siyahıya əsasən müqəddəs Ramazan ayı ərzində ümumilikdə 4000 aztəminatlı ailəyə ərzaq payı göndərməyi nəzərdə tutur. Sovqatların ölkə boyu müxtəlif ünvanlara çatdırılması Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Azərpoçt" MMC tərəfindən həyata keçirilir.

Qeyd edək ki, şirkətin xeyriyyə təşəbbüslərinə "Azercell" əməkdaşları da qoşulub. Son iki həftə ərzində "Azercell Könüllüləri" öz növbəsində hər gün aztəminatlı ailələri ziyarət edib, onlara ərzaq yardımı paylayıb. Həssas zamanda vətəndaşlara dəstək olan "Azercell Könüllüləri" bu istiqamətdə öz fəaliyyətlərini davam etdirməyə hazırdır.

"Azercell" şirkətinin təşkil etdiyi yardım aksiyaları COVID-19 pandemiyası ilə əlaqədar xüsusi karantin rejiminin tətbiq olunduğu dövrdə həssas təbəqədən olan insanların sosial rifahını yüksəltmək, dövlət tərəfindən həyata keçirilən tədbirlərə dəstək vermək məqsədi daşıyır.

# Hədiyyəli yeni iPhone SE modelləri "Azercell Eksklüziv"lərdə

## Yeni smartfon alan "Azercell" abunəçiləri 6 aylıq hədiyyə internet qazanacaq

Ölkənin rəqəmsal həllər təqdim edən lider mobil operatoru "Azercell Telekom" "Apple" brendinin pərəstişkarlarına yeni sərfəli kampaniya təklif edir. Kampaniya çərçivəsində "Azercell Eksklüziv" mağazalarından yenilənmiş dizayna, güclü prosessor və kameraya malik iPhone SE smartfonunu əldə etmiş abunəçilər 6 ay ərzində hədiyyə olaraq hər ay 50 GB internet də əldə edəcəklər. "Azercell"in bu təklifi həm yeni, həm də mövcud fakturalı və fakturasız xətt abunəçiləri üçün keçərlidir.

"Apple" şirkətinin Azərbaycandakı yeganə rəsmi telekom tərəfdaşı "Azercell" abunəçilərinə iPhone SE smartfonlarını əldə edərkən ən qabaqcıl texnologiyaların imkanlarından yararlanmaq fürsətini təqdim edir. "Azercell Eksklüziv" mağazalarına müraciət edərək yeni növ iPhone SE modellərini müxtəlif rəng və yaddaş ölçülərinə görə seçin və internetdən istifadə üçün möhtəşəm bonus əldə edin.


# Salyan Rayon İcra Hakimiyyəti 2020-ci ildə şəhərdəki yolların əsaslı təmiri işlərinin satın alınması məqsədilə

## *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:

- Salyan şəhərində yolların əsaslı təmiri işlərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının analoji işlərdə təcrübəsi, təmir-bərpa işləri üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Portal vasitəsilə ala bilərlər (əlaqələndirici şəxs: Lalayev Mahir İdris oğlu, telefon: 0-21-255-50-23).

**İştirak haqqı - 150 manat**
**Təşkilat: Salyan Rayon İcra Hakimiyyəti**
**VÖEN: 7000028611**
**(XHK 15004) Salyan YXO**
**Hesab:AZ12 AIIB32051029444300201143**
**VÖEN: 7000035491**
**Bank: "KapitalBank" Salyan filialı**
**Kodu: 200435**
**VÖEN: 9900003611**
**M/H:AZNABZ 01350100000000001944**
**SWİFT: AIIBAZ 2X**

**İştirak haqqı heç halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

1. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
2. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
3. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
4. İddiaçı (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:
   4.1. iddiaçının (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
   4.2. iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
   4.3. iddiaçının (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumat tenderin əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim edilməlidir);
5. Azərbaycan Respublikasında vergilərə və sosial sığorta ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
6. Vergilər Nazirliyi tərəfindən iddiaçının işçilərinin sayı, əmlakları, avadanlıqları, lazımi texniki imkanlarının olmasına dair rəsmi arayış.

İddiaçılar (podratçılar) tenderdə iştirak etmək üçün 1 və 4-cü bəndlərdə göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 09 iyun 2020-ci il saat 11:00-a qədər, tender təklifi və bank zəmanətini isə 18 iyun 2020-ci il saat 17:00-a qədərTender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaq. İddiaçıların təklifləri 19 iyun 2020-ci il saat 11:00-da elektron Portal vasitəsilə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***Tender komissiyası***



# Sumqayıt Şəhər İcra Hakimiyyəti yanında Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi aşağıdakı malların satın alınması məqsədilə təkliflər *sorğusu elan edir*

LOT- 1. Mənzil fondunun əsaslı təmiri (Sumqayıt şəhərində çoxmənzilli yaşayış binalarının fasadlarının təmiri işləri)
LOT- 2.Alleya və parkların təmiri (Sumqayıt şəhərində Yeni Bulvar ərazisinin davamında abadlıq işləri)
LOT - 3.Yolların asfalt örtüyünün təmiri (Sumqayıt şəhərində küçə və yolların asfalt örtüyünün təmiri işləri)
LOT - 4. Yol cizgi boyalarının çəkilməsi işləri

Təkliflər sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər Sumqayıt şəhəri, 4-cü mikrorayon, 27A ünvanına müraciət edə bilərlər. Əlaqələndirici şəxs - MKTİB-nin baş mühəndisi Rövşən Fərəcov, telefon- (018)642-00-61, mobil: 050 338-29-05.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 22 may 2020-ci il saat 17:00-dək qəbul olunur.Tender təklifi və bank təminatı möhürlənmiş, ikiqat zərfdə 31 may 2020-ci il saat 17:00-dan gec olmamaq şərtilə yuxarıdakı ünvana təqdim edilməlidir. Göstərilən müddətdən gec təqdim olunan qiymət təklifləri baxılmadan geri qaytarılacaqdır.

Qiymət təklifləri 01 iyun 2020-ci il saat 15:00-da Sumqayıt şəhəri, 4-cü mikrorayon, 27A nömrəli ünvanda açılacaqdır. İddiaçılar və ya onların səlahiyyətli nümayəndələri zərflərin açılışı prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***


## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğluna qardaşı

**ÇİNGİZ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğluna qardaşı

**ÇİNGİZ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7520
Sifariş 1237
Qiyməti 40 qəpik